Rəsmi dövlət qəzeti




# AZƏRBAYCAN

AZƏRBAYCAN RESPUBLİKASI MİLLİ MƏCLİSİNİN ORQANI

№ 12 (8035) CÜMƏ AXŞAMI, 17 yanvar 2019-cu il | Qəzetin əsası 1918-ci ildə qoyulmuşdur | www.azerbaijan-news.az


# Azərbaycanda qeyri-neft sənayesi sahəsində həyata keçirilən ən böyük layihə



**Yanvarın 16-da Sumqayıt Kimya Sənaye Parkının ərazisində inşa olunmuş "SOCAR karbamid" zavodu istifadəyə verilib. AZƏRTAC xəbər verir ki, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev tədbirdə iştirak edib.**

SOCAR-ın prezidenti Rövnəq Abdullayev və zavodun direktoru Xəyal Cəfərov görülən işlərlə bağlı dövlət başçısına məlumat verdilər.

Qeyd edək ki, karbamid zavodunun layihəsi Prezident İlham Əliyevin 2008-ci ilin avqustunda imzaladığı sərəncamla təsdiq edilmiş "2008-2015-ci illərdə əhalinin ərzaq məhsulları ilə etibarlı təminatına dair Dövlət Proqramı"na və 2014-cü ilin dekabrında imzaladığı sərəncamla təsdiq edilmiş "Sənayenin inkişafına dair 2015-2020-ci illər üçün Dövlət Proqramı"na əsasən icra edilib. Təməli 2011-ci ildə dövləti başçısı tərəfindən qoyulan zavodun tikintisi ilə əlaqədar elan olunan beynəlxalq açıq tenderin nəticələrinə əsasən, 2012-ci ildə Koreya Respublikasının "Samsung Engineering" şirkəti mühəndislik, satınalma və tikinti üzrə podratçı seçilib. Layihənin ammonyak və karbamid istehsalı üzrə texnoloji avadanlığı müvafiq olaraq Danimarka və Hollandiya şirkətləri tərəfindən təmin edilib. Həmçinin layihənin idarə edilməsi və müstəqil təftiş xidmətlərinin həyata keçirilməsi məqsədilə 2015-ci ildə Finlandiya şirkəti ilə müvafiq müqavilə imzalanıb. Tikintinin pik vaxtında zavodun inşasına, ümumilikdə, 3600 nəfərdən artıq işçi cəlb olunub. İnşaat zamanı təhlükəsizlik tələblərinə maksimum dərəcədə riayət edilib, iş həcmi qəzasız şəraitdə yerinə yetirilib.

Məlumat verildi ki, "SOCAR karbamid" zavodunun istehsala başlaması azot gübrəsi idxalına ehtiyacı aradan qaldıracaq, bununla da ölkənin xarici valyuta xərcləri azalacaq. Zavod ildə 435 milyon kubmetr təbii qaz həcmindən xammal kimi istifadə etməklə 650-660 min ton karbamid məhsulu istehsal etmək gücündədir. İstehsal həcminin 70 faizi ixrac üçün nəzərdə tutulur ki, bu da ölkəyə hər il 160 milyon dollara qədər əlavə gəlirin daxil olmasına imkan verəcək. Bu zavodun işə düşməsi Azərbaycanda kənd təsərrüfatının inkişafında mühüm rol oynayacaq. Belə ki, karbamid gübrəsi ən yüksək azot tutumuna malikdir və buna görə də ən keyfiyyətli azot gübrəsi hesab olunur. Suda tez həllolma qabiliyyətinə görə seçilən bu gübrə növü ammonyak və karbon dioksidin sintezi nəticəsində əldə edilir. Karbamidə tələbat onun aşağı maya dəyəri, qənaətcil daşınması, rahat tətbiqi və kənd təsərrüfatında yüksək məhsuldarlığı ilə əlaqədardır. Bu məhsuldan digər kimyəvi maddələrin istehsalında və əczaçılıqda da geniş istifadə olunur.

İndiyədək azot gübrələri Azərbaycana idxal edildiyi halda, yeni zavod həm daxili bazarın tələbatını tam ödəyəcək, həm də istehsal etdiyi məhsulun təxminən 70 faizini ixrac edəcək. Nəticədə, daha əvvəl idxal üçün sərf edilən illik 90 milyon dollara qədər valyuta vəsaitləri ölkədə qalacaq, eyni zamanda, zavod respublikamız üçün əlavə gəlir mənbəyinə çevriləcək.

"SOCAR karbamid" zavodu hazırda ölkədə qeyri-neft sektorunda həyata keçirilmiş ən böyük layihədir və ümumi dəyəri təxminən 800 milyon avro təşkil edir. Layihənin maliyyələşdirilməsi ilkin dövrdə dövlət büdcəsindən ayrılan vəsaitlər hesabına həyata keçirilib. Zavodun inşası zamanı bir sıra beynəlxalq banklardan dövlət zəmanəti əsasında 500 milyon avro məbləğində vəsait cəlb edilib. Zavodda təxminən 500 nəfər daimi işlə təmin ediləcək. Bunun üçün SOCAR təhsil və təqaüd proqramları vasitəsilə ixtisaslı mütəxəssisləri əvvəlcədən hazırlayıb.

Prezident İlham Əliyev zavodu işə saldı.

Sonra Prezident İlham Əliyev Sumqayıt Kimya Sənaye Parkının əsas rezidentlərindən olan "SOCAR karbamid" zavodunun fəaliyyətindən bəhs edən filmə baxdı.

Daha sonra dövlət başçısı müəssisənin kollektivi ilə görüşdü.

Azərbaycan Prezidenti görüşdə çıxış etdi.

*Bax: səh. 2*

# Azərbaycan-İran ikitərəfli münasibətləri hərbi sahədə də uğurla inkişaf edir



Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev yanvarın 16-da İran İslam Respublikasının Silahlı Qüvvələrinin Baş Qərargah rəisi Məhəmməd Baqerinin rəhbərlik etdiyi nümayəndə heyətini qəbul edib.

AZƏRTAC xəbər verir ki, dövlət başçısı Azərbaycan-İran ikitərəfli münasibətlərinin son illər ərzində bütün sahələrdə, o cümlədən hərbi sahədə uğurla inkişaf etdiyini bildirdi. Siyasi əlaqələrimizin bu gün ən yüksək pilləyə qalxdığını deyən Prezident İlham Əliyev son illər ərzində prezidentlər səviyyəsində 10-dan çox görüşün keçirilməsinin münasibətlərin inkişafında xüsusi rolunu qeyd etdi. Dövlət başçısı digər səviyyədə qarşılıqlı səfərlərin də əlaqələrin genişləndirilməsi baxımından önəmini vurğuladı. Xalqlarımızın əsrlər boyu mehriban qonşuluq şəraitində yaşadığını deyən Prezident İlham Əliyev Azərbaycan-İran dostluq və qardaşlıq münasibətlərinin qarşıdakı illərdə də uğurla inkişaf edəcəyinə əminliyini ifadə etdi.

İran İslam Respublikasının Silahlı Qüvvələrinin Baş Qərargah rəisi Məhəmməd Baqeri Prezident Həsən Ruhaninin salamlarını dövlət başçısına çatdırdı. Məhəmməd Baqeri bildirdi ki, İranın Ali Rəhbəri ölkələrimiz və xalqlarımız arasında əlaqələrin bundan sonra daha çox güclənməsini zəruri hesab edir. Qonaq qeyd etdi ki, Azərbaycanda Prezident İlham Əliyevin rəhbərliyi ilə əldə edilmiş inkişaf, əmin-amanlıq və sabitlik İran xalqı tərəfindən sevinclə qarşılanır. O, xalqlarımızın əsrlər boyu müştərək tarixə və mədəniyyətə malik olduğunu dedi və əlaqələrimizin bu gün də uğurla inkişaf etdiyini vurğuladı.

Məhəmməd Baqeri bildirdi ki, İran Qarabağ torpaqlarını Azərbaycan torpaqları hesab edir, Azərbaycanın ərazi bütövlüyünü dəstəkləyir və bundan sonra da dəstəkləyəcək, sərhədlərin zor gücü ilə dəyişdirilməsi qəbuledilməzdir, İran bu məsələdə hər zaman Azərbaycanın yanındadır.

Prezident İlham Əliyev bu qardaşlıq mövqeyinə görə onun təşəkkürlərinin İran rəhbərliyinə çatdırılmasını xahiş etdi və Azərbaycanın İran tərəfinin bu ədalətli mövqeyini yüksək qiymətləndirdiyini bildirdi. Dövlət başçısı işğal edilmiş ərazilərdə Azərbaycanın tarixi-dini abidələrinin ermənilər tərəfindən dağıdılması barədə Məhəmməd Baqerini məlumatlandırdı.

Dövlət başçısı İran İslam Respublikasının Prezidenti Həsən Ruhaninin salamlarına görə minnətdarlığını bildirdi, onun da salamlarını İran Prezidentinə çatdırmağı xahiş etdi.

# Azərbaycan Xəzərə tam nəzarət edir

Ən son nəsil naviqasiya və müşahidə avadanlıqları vasitəsilə Azərbaycanın ərazi sularında üzən gəmilərin hərəkətinin təhlükəsizliyi təmin edilir, dövlət bayrağımız altında xarici sulara çıxan gəmilərə də peyk vasitəsilə nəzarət olunur




*- Bəstəkar Qara Qarayev, Bakı trafik control!*

*- Bakı trafik control, bəstəkar Qara Qarayev!*

*- Siz bugünkü sutkalıq hava proqnozunu almısınız?*

*- Bəli, almışıq. Hava durumu küləklidir, lövbər rayonuna gedirik...*

*Bu dialoq ilk baxışda bir çoxumuza qəribə gələ bilər, amma həmin qısa danışıq, gəmiçilərin həyati təhlükəsi baxımından olduqca qiymətli informasiyadır.*

Dövlət Dəniz Agentliyinin Milli Mərkəzində hər saat müxtəlif istiqamətlər üzrə fasiləsiz olaraq bu cür məlumatlar ötürülür və qəbul edilir.

## Tarixi inkişaf yolu keçən dəniz nəqliyyatı

Azərbaycanın nəqliyyat sektorunu dəniz sferası olmadan təsəvvür etmək çətindir. Tarixi inkişaf yolu keçən dəniz nəqliyyatı bütün zamanlarda öz əhəmiyyətliyini saxlayıb. Müstəqillik qazanıldıqdan sonra, xüsusən müasir dövrdə respublikamızda dəniz nəqliyyatı sahəsinin tənzimlənməsi mühüm səciyyə daşıyır.

Bu vacib prosesin həyata keçirilməsində mərkəzi icra hakimiyyəti orqanı funksiyasını daşıyan Dövlət Dəniz Administrasiyası Prezidentin 6 fevral 2006-cı il tarixli 1271 nömrəli sərəncamına əsasən yaradılıb. Azərbaycanda nəqliyyat, rabitə və yüksək texnologiyalar sahəsində idarəetmənin təkmilləşdirilməsi ilə bağlı bəzi tədbirlər haqqında dövlət başçısının 12 yanvar 2018-ci il fərmanı ilə Dövlət Dəniz Agentliyi Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar Nazirliyinin strukturuna daxil edilib.

Dövlət Dəniz Agentliyi tabeliyində Dəniz Üzgüçülüyünün Təhlükəsizliyi Mərkəzi fəaliyyət göstərir. Adıçəkilən mərkəzin funksiyalarına ölkəmizin ərazi sularında və liman akvatoriyalarında dəniz üzgüçülüyünün təhlükəsizlik sisteminin təşkil olunması, gəmilərin hərəkətinin idarə edilməsi, gəmilərdə yoxlamaların həyata keçirilməsi, bələdçi xidmətinin göstərilməsi, gəmilərin uzaq məsafədən izlənilməsi və dəniz üzgüçülüyünün təhlükəsizliyinə aid digər funksiyalar daxildir.

## Xəzəryanı ölkələrdə ilk dəfə Azərbaycanda yaradılmış Milli Mərkəz

Dəniz Üzgüçülüyünün Təhlükəsizliyi Mərkəzinin yaradılması Azərbaycanın qoşulduğu beynəlxalq konvensiyaların tələblərinin yerinə yetirilməsinə və gəmilərin nəzarət yoxlamasının beynəlxalq standartlara uyğun olaraq daha səmərəli və effektiv həyata keçirilməsinə xidmət göstərir.

*Ardı 5-ci səh.*

# Fransa-Azərbaycan əlaqələrinin uğurlu inkişafında Mehriban xanım Əliyevanın rolu böyükdür







Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban Əliyeva yanvarın 16-da Fransa Respublikasının sabiq Prezidenti Nikola Sarkozi ilə görüşüb.

AZƏRTAC xəbər verir ki, görüşdə Nikola Sarkozinin prezidentlik fəaliyyəti dövründə Fransa-Azərbaycan əlaqələrinin uğurlu inkişafında xanım Mehriban Əliyevanın rolu vurğulanıb. Qeyd edilib ki, xanım Mehriban Əliyevanın Azərbaycan-Fransa parlamentlərarası dostluq qrupunun rəhbəri kimi fəaliyyəti və eləcə də Heydər Əliyev Fondu tərəfindən Fransada mühüm humanitar layihələrin həyata keçirilməsi əməkdaşlığımızın daha da möhkəmlənməsi işinə böyük töhfə verib.

Görüşdə, eyni zamanda, bildirilib ki, Nikola Sarkozinin prezidentliyi dövründə Azərbaycan və Fransa dövlət başçılarının ikitərəfli münasibətlərin inkişaf etdirilməsi istiqamətində göstərdikləri fəaliyyət nəticəsində ölkələrimiz arasında əlaqələr bir çox sahələrdə genişlənib.

# Azərbaycanda qeyri-neft sənayesi sahəsində həyata keçirilən ən böyük layihə







## Prezident İlham Əliyevin çıxışı

*Əvvəli 1-ci səh.*

- Bu gün ölkəmizin tarixində çox əlamətdar hadisə baş verir. Biz Sumqayıt şəhərində karbamid zavodunun açılışını qeyd edirik. Bu münasibətlə sizi ürəkdən təbrik edirəm.

Bu zavodun yaradılması çox əlamətdar, çox önəmli hadisədir. Zavodun tikintisində iştirak etmiş bütün insanlara təşəkkürümü bildirmək istəyirəm. Mənə verilən məlumata görə, burada pik dövrdə üç mindən çox insan işləyib və onların mütləq əksəriyyəti Azərbaycan vətəndaşlarıdır. Bu, onu göstərir ki, Azərbaycanda çox güclü kadr potensialı yaradılmışdır, həm fəhlə kadrları, həm mütəxəssislər. Bu, son illər ərzində təhsil sahəsinə ayrılan diqqətin bariz nümunəsidir.

Bu zavodun tikintisində xarici tərəfdaşlar iştirak etmişlər. Baş podratçı Koreyanın "Samsung" şirkətidir. Ən müasir avadanlıqlar Danimarka və Hollandiya şirkətləri tərəfindən təchiz edilib. Finlandiya şirkəti bu zavodun fəaliyyəti üçün lazım olan məsləhətləri verib. Yəni, biz burada çox müsbət beynəlxalq əməkdaşlıq nümunəsini görürük. Bu, bir daha onu göstərir ki, Azərbaycan xarici şirkətlər üçün çox cəlbedici ölkədir. Bu gözəl sənaye müəssisəsi birgə səylər nəticəsində yaradılıb.

Onu da bildirməliyəm ki, zavodun ərsəyə gəlməsində xarici bankların da rolu kifayət qədər böyükdür. Biz zavodu tikməyə başlayanda öz vəsaitimizi ilk mərhələdə qoymuşuq. Sonra xarici banklardan da kreditlər verildi. Bizə maliyyə cəhətdən dəstək olan bütün banklara da təşəkkürümü bildirmək istəyirəm.

Beləliklə, ölkəmizdə ən müasir standartlara cavab verən gözəl böyük sənaye müəssisəsi yaradılmışdır. Bu zavod Azərbaycanda qeyri-neft sənayesi sahəsində həyata keçirilən ən böyük layihədir. Mənə verilən məlumata görə, zavodda ildə 650 min ton karbamid istehsal olunacaq. Onun böyük əksəriyyəti ixrac ediləcək. Eyni zamanda, daxili tələbat da ödəniləcək. Çünki biz bu günə qədər gübrələri xaricdən alırıq və bu məqsədlər üçün böyük həcmdə valyuta xərclənir. Azərbaycan dövlətinin fermerlərə verilən gübrələrin 70 faizinin vəsaitini təmin etdiyini nəzərə alsaq, təsəvvür etmək çətin deyil ki, bu, büdcəmiz üçün kifayət qədər maliyyə yüküdür. Amma indi biz özümüz fermerlərimizi ən keyfiyyətli gübrə ilə təmin edəcəyik.

Zavodun özəlliyi həm də ondan ibarətdir ki, burada xammal kimi istifadə olunan məhsul təbii qazdır, yerli məhsuldur. Yəni, karbamidin tərkibində xarici komponent yoxdur. Burada ildə 450 milyon kubmetr təbii qazdan istifadə olunacaq. Əgər biz təbii qazı indi bugünkü qiymətlərlə mövcud xarici bazarlara satsaydıq, bundan təqribən 80 milyon dollar vəsait əldə edə bilərdik. Ancaq karbamid şəklində istehsal olunacaq məhsulun dəyəri 150-160 milyon dollar olacaqdır. Yəni, biz səmərəliliyi demək olar ki, iki dəfə artırmışıq. Ölkəmiz üçün çox gözəl ixrac məhsulu yaratmışıq. Kənd təsərrüfatının inkişafı üçün yerli gübrə yaratmışıq və ölkəmizin qeyri-neft sənayesinə böyük töhfə vermişik. Yəni, zavodun fəaliyyətə başlaması, bax, bu əsas məqsədləri güdür. Biz bütün məqsədlərə çata bilmişik.

Mən çox şadam ki, ölkəmizdə qeyri-neft sənayesi sürətlə artır. Keçən il 9,1 faiz artmışdır. Bu, onu göstərir ki, sənayeləşmə prosesi uğurla gedir. Keçən ilin yayında Sumqayıtda "SOCAR Polymer" müəssisəsinin birinci mərhələsi fəaliyyətə başladı. Bu il onun ikinci mərhələsi fəaliyyətə başlayacaq. Burada da ixracyönümlü çox gözəl məhsul istehsal olunacaq. Eyni zamanda, daxildə polipropilen, polietilendən istehsal olunacaq hazır məhsul da satışa buraxılacaq. Biz yenə də idxaldan asılılığı aradan qaldıracağıq. Bu zavodlarda yüzlərlə yeni iş yeri yaradılır. Mənə verilən məlumata görə, karbamid zavodunda 500 iş yeri yaradılacaq və burada işləyəcək insanların mütləq əksəriyyəti yerli vətəndaşlardır, onların əksəriyyəti gənclərdir. Yəni, orada çalışan insanların orta yaş səviyyəsi təqribən 30-35 arasındadır. Bax, görülən bu işlərin nəticələri budur. Ölkəmizin uğurlu inkişafı üçün belə böyük müəssisələrin çox böyük əhəmiyyəti var. Qeyri-neft sektorunun inkişafı bundan sonra da bizim üçün prioritet olacaq. Qeyd etdiyim kimi, qeyri-neft sənayesində 9,1 faiz artım çox böyük göstəricidir.





Əlbəttə, Azərbaycan bu layihələri xarici tərəfdaşlarla həyata keçirərkən bizim beynəlxalq əlaqələrimiz də möhkəmlənir. Bu gün Azərbaycan o ölkədir ki, bu ölkəyə həm xarici sərmayə qoyulur, həm banklar böyük məmnuniyyətlə vəsait ayırır. Çünki bilirlər ki, onların vəsaiti batmayacaq. Bilirlər ki, Azərbaycanın kifayət qədər böyük maliyyə resursları var. Bizim maliyyə resurslarımız, ehtiyatlarımız xarici borcumuzdan 4,5 dəfə çoxdur. Bax, bu gözəl vəziyyət imkan verir ki, biz tərəfdaşları, xarici bankları cəlb edək. Ancaq eyni zamanda, bizim siyasətimiz ondan ibarətdir ki, xarici dövlət borcumuzu aşağı salaq. Necə ki, keçən il ərzində xarici dövlət borcu 22,8 faizdən 19 faizə düşübdür və bu il daha da düşəcək.

Mən çox şadam ki, bu gözəl müəssisə Sumqayıt şəhərində yaradılıb. Sumqayıt nəinki Azərbaycanın, Cənubi Qafqazın ikinci böyük sənaye şəhəridir. Sumqayıtın sənaye potensialının möhkəmləndirilməsi üçün çox böyük işlər görülüb. Mənim təşəbbüsümlə Sumqayıt Texnologiyalar Parkı, Sumqayıt Kimya Sənaye Parkı yaradılıb və 2017-ci ildə karbamid zavodu parkın rezidenti olubdur. Hazırda Sumqayıt Kimya Sənaye Parkında 18 rezident var. Onlardan 10-u fəaliyyət göstərir, artıq 11-ci rezident - karbamid zavodu da fəaliyyətə başlamışdır. Sumqayıt Kimya Sənaye Parkına qoyulan və qoyulacaq ümumi sərmayə təqribən 3 milyard dollara yaxındır. Bu həm Sumqayıtın iqtisadi-sənaye potensialını gücləndirir, həm də iş yerlərinin yaradılmasına xidmət göstərir. Sumqayıtın ümumi inkişafı, o cümlədən ekoloji vəziyyətinin yaxşılaşdırılması üçün çox böyük işlər görülür. Sumqayıt bu gün parklar, bağlar, xiyabanlar şəhəridir, gözəl bulvar salınıb, binaların dam örtükləri təmir olunur. Ümumiyyətlə, indi Sumqayıtın müasir görkəmi çox müsbətdir. Bu zavod da ekoloji baxımdan çox təmiz bir zavoddur. Mənə verilən məlumata görə, havanı çirkləndirən heç bir maddə olmayacaq.

Beləliklə, bu zavodun yaradılması böyük hadisədir. Mən burada iştirak etmiş bütün vətəndaşları, bu işlərdə fəal rolu olan bütün insanları bir daha həm təbrik edirəm, həm onlara təşəkkürümü bildirirəm.

Onu da bildirməliyəm ki, bu zavodun açılışı Xoşbəxt Yusifzadənin ad gününə təsadüf edir. Mən istəyirəm, Xoşbəxt müəllimi bu gözəl hadisə münasibətilə bütün Azərbaycan vətəndaşları adından təbrik edim. Xoşbəxt müəllim neft sənayesinin canlı əfsanəsidir, neft sənayesinin rəmzidir, Azərbaycan vətəndaşının rəmzidir. Mən xüsusilə xahiş etdim ki, Xoşbəxt müəllim bu gün buraya dəvət olunsun, həm onu təbrik edim, eyni zamanda, bu gözəl hadisəni biz birlikdə qeyd edək.

Sizi bir daha təbrik edirəm, Sizə yeni uğurlar arzulayıram. Sağ olun.

❖ ❖ ❖

Prezident İlham Əliyev zavodda istehsal olunacaq məhsullara da baxdı. Zavodda gün ərzində 2000 ton karbamid istehsal ediləcək.

Sonda xatirə şəkli çəkdirildi.

## Azərbaycan Respublikası Ekologiya və Təbii Sərvətlər Nazirliyinin strukturunun və idarə edilməsinin təkmilləşdirilməsi ilə bağlı tədbirlər haqqında

### Azərbaycan Respublikası Prezidentinin Fərmanı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, Azərbaycan Respublikası Ekologiya və Təbii Sərvətlər Nazirliyinin fəaliyyətini optimallaşdırmaq, strukturunu və idarə edilməsini daha da təkmilləşdirmək məqsədilə **qərara alıram:**

1. Ətraf mühitin mühafizəsi departamentinin əsasında Azərbaycan Respublikasının Ekologiya və Təbii Sərvətlər Nazirliyi yanında Dövlət Ekoloji Təhlükəsizlik Xidməti, Meşələrin inkişafı departamentinin və Elmi Tədqiqat Meşəçilik İnstitutunun əsasında Azərbaycan Respublikasının Ekologiya və Təbii Sərvətlər Nazirliyi yanında Meşələrin İnkişafı Xidməti yaradılsın.

2. Ətraf mühit üzrə milli monitorinq departamentinin, Milli hidrometeorologiya departamentinin, Hidrometeorologiya Elmi Tədqiqat İnstitutunun, Metrologiya və Standartlaşdırma Mərkəzinin və Ətraf Mühit üzrə Laboratoriya Mərkəzinin əsasında Azərbaycan Respublikasının Ekologiya və Təbii Sərvətlər Nazirliyi yanında Milli Hidrometeorologiya Xidməti yaradılsın.

3. Bioloji müxtəlifliyin qorunması və xüsusi mühafizə olunan təbiət ərazilərinin inkişafı departamentinin, Su hövzələrinin bioloji resurslarının artırılması və mühafizəsi departamentinin, Ovçuluq Təsərrüfatlarının İdarə Edilməsi və Ovçuluq Fəaliyyətinə Dövlət Nəzarəti Xidmətinin və Elmi Tədqiqat Balıqçılıq Təsərrüfatı İnstitutunun əsasında Azərbaycan Respublikasının Ekologiya və Təbii Sərvətlər Nazirliyi yanında Bioloji Müxtəlifliyin Qorunması Xidməti yaradılsın.

4. Azərbaycan Respublikasının Ekologiya və Təbii Sərvətlər Nazirliyi yanında Geodeziya və Kartoqrafiya üzrə Dövlət Agentliyi ləğv edilsin və onun funksiyaları nazirliyin Aparatı vasitəsilə həyata keçirilsin, habelə həmin Agentliyin tabeliyindəki Dövlət Aerogeodeziya Müəssisəsi və Bakı Kartoqrafiya Fabriki nazirliyin tabeliyinə verilsin.

5. Bakı şəhər Ekologiya və Təbii Sərvətlər Departamenti ləğv edilsin və onun işçilərinin say həddi daxilində nazirliyin yerli orqanlarının işçilərinin say həddi artırılsın.

6. Dövlət Ekspertiza İdarəsinin əsasında Azərbaycan Respublikası Ekologiya və Təbii Sərvətlər nazirliyinin tabeliyində publik hüquqi şəxs statuslu Dövlət Ekoloji Ekspertiza Agentliyi (bundan sonra - Agentlik) yaradılsın.

7. Agentlikdə təsisçinin səlahiyyətlərinin həyata keçirilməsi aşağıdakılara həvalə edilsin:

7.1. Azərbaycan Respublikasının Prezidentinə:

7.1.1. Agentliyin nizamnaməsinin təsdiq olunması və nizamnamə fondunun miqdarının müəyyən edilməsi;

7.1.2. Agentliyin yenidən təşkili və ləğv edilməsi;

7.2. Azərbaycan Respublikasının Ekologiya və Təbii Sərvətlər Nazirliyinə:

7.2.1. bu fərmanın 7.1-ci bəndində qeyd edilənlər istisna olmaqla, "Publik hüquqi şəxslər haqqında" Azərbaycan Respublikası Qanununun 8.2-ci maddəsində publik hüquqi şəxsin təsisçisinin səlahiyyətlərinə aid edilmiş digər məsələlərin həlli.

8. Müəyyən edilsin ki:

8.1. Agentlik "Ətraf mühitin mühafizəsi haqqında", "Ekoloji təhlükəsizlik haqqında" və "Ətraf mühitə təsirin qiymətləndirilməsi haqqında" Azərbaycan Respublikasının qanunlarına müvafiq olaraq təsərrüfat və digər fəaliyyətlərin dövlət ekoloji ekspertizasından keçirilməsi də daxil olmaqla, ekoloji təhlükəsizliyin tələblərinə uyğunluğunu müəyyən edən, habelə bu sahədə xidmətlər göstərən publik hüquqi şəxsdir;

8.2. Agentliyin nizamnamə fondu Ətraf Mühitin Mühafizəsi üzrə Dövlət Fondunun vəsaiti, habelə Azərbaycan Respublikası Ekologiya və Təbii Sərvətlər Nazirliyinin balansından Agentliyə verilən aktivlər, habelə qanunla qadağan olunmayan digər mənbələr hesabına formalaşdırılır.

9. Azərbaycan Respublikasının Nazirlər Kabineti:

9.1. Azərbaycan Respublikası Prezidentinin aktlarının bu fərmana uyğunlaşdırılması ilə bağlı təkliflərini üç ay müddətində hazırlayıb Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin;

9.2. Azərbaycan Respublikası Nazirlər Kabinetinin normativ hüquqi aktlarının bu fərmana uyğunlaşdırılmasını üç ay müddətində təmin edib Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

9.3. mərkəzi icra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının bu fərmana uyğunlaşdırılmasını nəzarətdə saxlasın və bunun icrası barədə beş ay müddətində Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

9.4. Azərbaycan Respublikası Ekologiya və Təbii Sərvətlər Nazirliyinin strukturuna daxil olmayan tabeliyindəki qurumlarla bağlı aşağıdakıları təmin edən tədbirlər görsün və nəticəsi barədə üç ay müddətində Azərbaycan Respublikasının Prezidentinə məlumat versin:

9.4.1. Şuşa İriləşdirilmiş Meşəbəyiliyinin, Ağdərə Meşə Təsərrüfatının, Kəlbəcər Meşə Təsərrüfatının, Laçın Meşə Təsərrüfatının və Zəngilan Meşə Təsərrüfatının ləğv edilərək, onların əsasında Qarabağ Regional Meşə Təsərrüfatı Mərkəzinin yaradılmasını;

9.4.2. İqlim Dəyişmələri və Ozon Mərkəzinin, İqlim Bazası və Kommunikasiya Mərkəzinin, Kompleks Hidrometeoroloji və Ekoloji Tədqiqat Elm Mərkəzi, Mineral Xammal Analitik və Elmi Tədqiqatlar Mərkəzinin, Normativ və Texniki Normativ Hüquqi Aktlar üzrə Elmi Tətbiqi Mərkəzinin, İxtisaslaşdırma və İxtisasartırma İnstitutunun, Operativ Monitorinq və Ekspedisiyalar Mərkəzinin, Geofiziki Ekspedisiyanın, Şərq Geoloji Axtarış Ekspedisiyasının, Qərb Geoloji Axtarış Ekspedisiyasının, Geoloji Planaalma Ekspedisiyasının və Kompleks Hidrogeologiya və Mühəndis Geologiyası Ekspedisiyasının, Samux Dövlət Ovçuluq Təsərrüfatının, Zooloji Parkın və Layihələrin İcra Qrupunun ləğv edilməsini;

9.4.3. Ətraf Mühit və Təbii Sərvətlər üzrə İnformasiya - Arxiv Fondunun və Milli Geoloji Kəşfiyyat Xidmətinin əsasında vahid qurumun yaradılmasını;

9.4.4. Azərbaycan Respublikası Ekologiya və Təbii Sərvətlər Nazirliyinin, habelə bu fərmanın 1-3-cü hissələri ilə yaradılan dövlət orqanlarının əsasnamələrinin layihələrini və işçilərinin say həddi barədə təkliflərini üç ay müddətində hazırlayıb Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin;

9.4.5. Agentlik "Hüquqi şəxslərin dövlət qeydiyyatı və dövlət reyestri haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun olaraq dövlət qeydiyyatına alındığı gündən bir ay müddətində bu fərmanın 8.2-ci bəndinə əsasən Ətraf Mühitin Mühafizəsi üzrə Dövlət Fondunun vəsaitinin müvafiq hissəsinin və Azərbaycan Respublikası Ekologiya və Təbii Sərvətlər Nazirliyinin balansındakı müvafiq əmlakın Agentliyin balansına verilməsini təmin etsin;

9.4.6. dövlət ekoloji ekspertizasının maliyyələşdirilməsinin yeni qaydasını Azərbaycan Respublikasının Prezidenti ilə razılaşdırmaqla üç ay müddətində müəyyən etsin;

9.5. bu fərmandan irəli gələn digər məsələləri həll etsin.

10. Azərbaycan Respublikasının Ekologiya və Təbii Sərvətlər Nazirliyi:

10.1. Azərbaycan Respublikasının Dövlət İmtahan Mərkəzi ilə birlikdə strukturuna daxil olan və bu fərmana əsasən ləğv edilən dövlət orqanlarında işləyən dövlət qulluqçularına münasibətdə Azərbaycan Respublikası Prezidentinin 2011-ci il 1 iyul tarixli 464 nömrəli Fərmanı ilə təsdiq edilmiş "Dövlət orqanları ləğv edilərsə və ya ştatlar ixtisara düşərsə, vəzifə maaşına və ixtisasa uyğun işə düzəlməkdə və ya dövlət orqanlarında tutduğu vəzifəyə uyğun vəzifə tutmaqda dövlət qulluqçusunun "Dövlət qulluğu haqqında" Azərbaycan Respublikası Qanununun 21.1.6-cı maddəsində nəzərdə tutulmuş üstünlüyünün həyata keçirilməsi Qaydası"na uyğun olaraq tədbirlər görsün;

10.2. bu fərmana əsasən ləğv edilən dövlət qurumlarının işçilərinin nazirliyin tabeliyindəki digər qurumlarda müvafiq vakant vəzifələrə təyin edilməsi ilə bağlı tədbirlər görsün;

10.3. bu fərmanın 10.1-ci və 10.2-ci bəndlərinin icrası ilə bağlı Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

10.4. bu fərmandan irəli gələn digər məsələləri həll etsin.

11. Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi mərkəzi icra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının və normativ xarakterli aktların bu fərmana uyğunlaşdırılmasını təmin edib Azərbaycan Respublikasının Nazirlər Kabinetinə məlumat versin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 16 yanvar 2019-cu il*

# Azərbaycan Respublikasının 1996-cı il 17 may tarixli 74-IQ nömrəli Qanunu ilə təsdiq edilmiş "Azərbaycan Respublikası Milli Məclisinin Daxili Nizamnaməsi"ndə dəyişiklik edilməsi haqqında

## Azərbaycan Respublikasının Qanunu

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 92-ci maddəsini və 95-ci maddəsinin I hissəsinin 1-ci bəndini rəhbər tutaraq, 2016-cı il 26 sentyabr tarixli referendum nəticəsində qəbul edilmiş "Azərbaycan Respublikasının Konstitusiyasında dəyişikliklər edilməsi haqqında" Azərbaycan Respublikası Referendum Aktının, "Normativ hüquqi aktlar haqqında" Azərbaycan Respublikası Konstitusiya Qanununun və "Azərbaycan Respublikası Milli Məclisi deputatının etik davranış qaydaları haqqında" Azərbaycan Respublikası Qanununun tətbiqi ilə əlaqədar **qərara alır:**

Azərbaycan Respublikasının 1996-cı il 17 may tarixli 74-IQ nömrəli Qanunu (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 1997, № 2, maddə 107; 1999, № 5, maddə 284; 2000, № 6, maddə 380, № 12, maddələr 832, 834; 2003, № 2, maddə 77; 2004, № 5, maddə 314; 2006, № 1, maddə 3, № 5, maddə 396, № 12, maddə 1005; 2007, № 8, maddə 755, № 11, maddələr 1049, 1081; 2009, № 6, maddə 395; 2010, № 3, maddə 171; 2013, № 4, maddə 358; 2016, № 1, maddə 35) ilə təsdiq edilmiş "Azərbaycan Respublikası Milli Məclisinin Daxili Nizamnaməsi"ndə aşağıdakı dəyişikliklər edilsin:

1. 1-ci maddənin beşinci hissəsində, 1-1-ci maddənin birinci-üçüncü hissələrində, 17-ci maddənin onuncu hissəsində, 21-1-ci maddənin mətnində (birinci hissədə birinci haldan başqa) ismin müvafiq hallarında "Azərbaycan Respublikasının Milli Məclisi" sözləri ismin müvafiq hallarında "Milli Məclis" sözləri ilə əvəz edilsin.

2. 1-1-ci maddənin ikinci və üçüncü hissələrinə "Konstitusiya" sözündən əvvəl "Azərbaycan Respublikasının" sözləri əlavə edilsin.

3. 3-cü maddənin ikinci hissəsi aşağıdakı redaksiyada verilsin:

"Azərbaycan Respublikası Konstitusiyasının 88-ci maddəsinin IV hissəsinə əsasən, Milli Məclisin 83 deputatının tələbi ilə və ya Azərbaycan Respublikası Prezidentinin təklifi ilə Milli Məclisin sessiyasının qapalı iclası keçirilə bilər.".

4. 4-cü maddənin üçüncü hissəsinin birinci cümləsi aşağıdakı redaksiyada verilsin:

"Milli Məclisin açıq iclaslarının protokolları və stenoqramları bu Daxili Nizamnamənin 53-cü maddəsinin dördüncü hissəsinə uyğun olaraq rəsmi dərc edilir.".

5. 5-ci maddənin üçüncü və dördüncü hissələrindən, 12-ci maddənin birinci hissəsindən, 18-ci maddənin ikinci hissəsindən, 22-ci maddənin üçüncü hissəsindən və 24-cü maddənin ikinci hissəsindən ", bir qayda olaraq," sözləri çıxarılsın.

6. 6-cı maddənin üçüncü hissəsinə aşağıdakı məzmunda ikinci cümlə əlavə edilsin:

"Fasilədən sonra Milli Məclisin iclasında üzrsüz səbəbdən qeydiyyatdan keçməyən Milli Məclisin deputatı həmin iclasda iştirak etməmiş hesab edilir.".

7. 7-ci maddənin mətni aşağıdakı redaksiyada verilsin:

"Normativ hüquqi aktlar haqqında" Azərbaycan Respublikası Konstitusiya Qanununun 42.1-ci maddəsinə əsasən, müvafiq olaraq, Milli Məclis və Azərbaycan Respublikasının Prezidenti qanun layihələrinin hazırlanmasının qarşılıqlı razılaşdırılmış illik planını tərtib edir. Milli Məclisin iclasları həmin illik plan əsasında növbəti sessiyanın ilk iclasında qəbul edilən qanunvericilik işləri planına uyğun olaraq keçirilir. Milli Məclisin qanunvericilik işləri planı qərarla təsdiq edilir və onun həyata keçirilməsinə Milli Məclis tərəfindən nəzarət edilir.".

8. 15-ci maddə üzrə:

8.1. birinci hissəyə "Konstitusiyasına" sözündən sonra ", "Normativ hüquqi aktlar haqqında" Azərbaycan Respublikasının Konstitusiya Qanununa" sözləri əlavə edilsin;

8.2. üçüncü-altıncı hissələr, müvafiq olaraq, dördüncü-yeddinci hissələr hesab edilsin və aşağıdakı məzmunda üçüncü hissə əlavə edilsin:

"Aparıcı komitənin tapşırığı ilə Milli Məclisin Aparatı qanun layihələrinin ictimai dinləmələri və ictimai müzakirələrini təşkil edir. İctimai dinləmə və ictimai müzakirə komitə iclası ilə birlikdə keçirilə bilər. İctimai dinləmənin və ictimai müzakirənin təşkili üçün Milli Məclisin Aparatı "İctimai iştirakçılıq haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun olaraq tədbirlər görür. İctimai dinləməyə və ictimai müzakirəyə dəvət edilən şəxslər ictimai dinləmənin və ya ictimai müzakirənin keçirilməsi tarixi barədə azı 5 gün əvvəl, Azərbaycan Respublikası Konstitusiyasının 96-cı maddəsinin V hissəsinə əsasən, təcili elan edilən qanun layihələri ilə bağlı isə azı 3 gün əvvəl xəbərdar olunurlar.";

8.3. dördüncü hissə aşağıdakı redaksiyada verilsin:

"Milli Məclisin Aparatı komitənin tapşırığı ilə qanun və qərar layihələrinin məcburi hüquqi və linqvistik ekspertizalarını keçirir, habelə qanun layihəsinin qəbul edilməsi ilə bağlı hazırlanmalı, dəyişdirilməli və ya ləğv edilməli normativ hüquqi aktların (onların struktur elementlərinin) siyahısını tərtib edir. Hazırlanmalı olan normativ hüquqi aktların (onların struktur elementlərinin) siyahısı olmadan qanun layihələrinin hazırlanmasına yalnız bunun üçün 1 ildən artıq müddət tələb edildikdə yol verilir. Bu halda aparıcı komitə tərəfindən müvafiq siyahının təqdim edilməsi müddətini müəyyən edən tapşırıq hazırlanır.";

8.4. aşağıdakı məzmunda səkkizinci-on üçüncü hissələr əlavə edilsin:

"Qanunvericilik təşəbbüsü hüququnun subyekti və ya onun səlahiyyətli nümayəndəsi Milli Məclisdə layihə üzərində aparılan işdə iştirak etmək hüququna malikdir.

Azərbaycan Respublikasının Prezidenti tərəfindən Milli Məclisə təqdim edilmiş qanun layihəsi bütün maraqlı dövlət orqanları ilə razılaşdırılmış hesab olunur.

Qanun layihəsi Milli Məclisdə layihədə edilmiş dəyişikliklərlə birlikdə aşağıdakılarla razılaşdırılmalıdır (rəy alınmalıdır):

1) qanun layihəsini təqdim etmiş qanunvericilik təşəbbüsü hüququnun subyekti ilə;

2) dəyişikliklər edilməsi dövlət vəsaitlərinin ixtisar edilməsinə, xərclərin yaranmasına və ya artırılmasına səbəb ola bildikdə Azərbaycan Respublikasının Prezidenti ilə və ya onun tapşırığı ilə Azərbaycan Respublikasının Nazirlər Kabineti ilə.

"Normativ hüquqi aktlar haqqında" Azərbaycan Respublikası Konstitusiya Qanununun 46.2-ci maddəsində nəzərdə tutulan razılaşdırılma (rəy) nəticəsində Milli Məclisə təqdim edilmiş dəyişikliklər qanun layihəsinin alındığı gündən 14 gün keçənədək bu şərtlə həyata keçirilir ki, həmin qanun layihəsi üzrə məcburi hüquqi ekspertizanın keçirilməsi və qanun layihəsinə baxılmasının təcili elan edilməsi ayrı müddət tələb etməsin. Əlavə məlumatın alınması zərurəti olduqda, habelə xüsusilə mürəkkəb qanun layihələri üzrə rəyin hazırlanması və razılaşdırılmanın keçirilməsi (rəyin hazırlanması) üçün daha uzun müddət müəyyən edilə bilər.

Rəyə göndərilmədən və razılaşdırılmadan müvafiq qanun layihəsində dəyişikliklər (texniki xarakter daşıyan dəyişikliklər istisna olmaqla) edilməsinə yol verilmir.

Milli Məclisə təqdim olunmuş qanun layihəsində dəyişikliklər edilmədikdə qanun layihəsi qanunvericilik təşəbbüsü hüququnun subyekti ilə təkrar razılaşdırılmır.".

9. 16-cı maddənin mətni aşağıdakı redaksiyada verilsin:

"Normativ hüquqi aktlar haqqında" Azərbaycan Respublikası Konstitusiya Qanununun 70.3-cü maddəsinə əsasən, Milli Məclisdə dövlətlərarası və Azərbaycan Respublikasının qanunlarından fərqli qaydalar nəzərdə tutan hökumətlərarası müqavilələrin təsdiq və ləğv edilməsi barədə, uyğunlaşdırma məqsədi ilə hazırlanmış, həmçinin ad və digər texniki xarakter daşıyan dəyişiklikləri (müddət, məbləğ, yaş senzi ilə bağlı, həmçinin subyektlərin hüquqi vəziyyətinə təsir edən, hüquq məsuliyyətini yaradan və ya aradan qaldıran, yüngülləşdirən və ya ağırlaşdıran dəyişikliklər istisna olmaqla) nəzərdə tutan qanun layihələrinə bir oxunuşda, digər qanun layihələrinə, həmçinin Konstitusiya qanunu layihələrinə isə üç oxunuşda baxılır.

Qanunvericilik təşəbbüsü hüququnun subyekti Milli Məclisin müzakirəsinə təqdim etdiyi qanun layihəsini onun yekun oxunuşda baxılmasına qədər geri çağırmaq hüququna malikdir.

Milli Məclisdə birinci, ikinci və üçüncü oxunuşlarda baxılması üçün tam hazırlanmış qanun layihəsi müvafiq oxunuşda baxılmasına azı 5 gün qalmış qanunvericilik təşəbbüsü hüququnun subyektinə təqdim edilir.".

10. 17-ci maddə üzrə:

10.1. dördüncü hissənin 2-ci bəndi aşağıdakı redaksiyada verilsin:

"2) əsaslar və səbəblər göstərilməklə layihə rədd edilsin;";

10.2. dördüncü hissəyə aşağıdakı məzmunda 2-1-ci və 2-2-ci bəndlər əlavə edilsin:

"2-1) layihənin qəbul edilməsi müəyyən müddətə təxirə salınsın;

2-2) irad və təkliflər göstərilməklə, layihə yenidən işlənilməsi üçün geri qaytarılsın;";

10.3. beşinci hissədə "dərc olunması və ümumxalq müzakirəsinə çıxarılması" sözləri "ictimai dinləməsinin və ya ictimai müzakirəsinin keçirilməsi" sözləri ilə əvəz edilsin;

10.4. altıncı hissənin ikinci və üçüncü cümlələrinə "Konstitusiyasına" sözündən sonra "və "Normativ hüquqi aktlar haqqında" Azərbaycan Respublikasının Konstitusiya Qanununa" sözləri əlavə edilsin;

10.5. səkkizinci hissə ləğv edilsin;

10.6. doqquzuncu hissə aşağıdakı redaksiyada verilsin:

"Azərbaycan Respublikası Konstitusiyasının 96-cı maddəsinin II hissəsində nəzərdə tutulan qanunvericilik təşəbbüsü hüququnun subyektlərinin qanunvericilik təşəbbüsü qaydasında Milli Məclisin müzakirəsinə verdikləri qanun və ya qərar layihələri müzakirəyə təqdim olunmuş şəkildə çıxarılır və səsə qoyulur. Bu qanun və ya qərar layihələrində dəyişikliklər həmin subyektlərin razılığı ilə edilə bilər.";

10.7. onuncu hissədə "1.5-ci" sözü "1.8-ci" sözü ilə və "və ya yenidən baxılmasına" sözləri ", ləğv edilməsinə və ya qanunlarda dəyişikliklər edilməsinə" sözləri ilə əvəz edilsin.

11. 18-ci maddənin dördüncü hissəsinin dördüncü cümləsi aşağıdakı redaksiyada verilsin:

"Qanun və ya qərar layihəsi Milli Məclisin müzakirəsinə məcburi hüquqi ekspertizanın rəyi ilə, layihəyə dair verilmiş təklif dövlət vəsaitlərinin ixtisar edilməsinə, xərclərin yaranmasına və ya artırılmasına səbəb ola bildikdə isə, həmçinin bu Daxili Nizamnamənin 15-ci maddəsinin onuncu hissəsinin 2-ci bəndinə uyğun olaraq, müvafiq rəylə birlikdə çıxarılır.".

12. 19-cu maddənin ikinci hissəsi aşağıdakı redaksiyada verilsin:

"Milli Məclisin müzakirəsində üçüncü oxunuşda olan qanun layihəsi 63 səs çoxluğu ilə ikinci oxunuşa qaytarıla bilər.".

13. 21-1-ci maddə üzrə:

13.1. ikinci hissədə "Azərbaycan Respublikası Hesablama Palatasının Daxili Nizamnaməsinin 25.3-cü" sözləri "Hesablama Palatası haqqında" Azərbaycan Respublikası Qanununun 7.0.11-ci" sözləri ilə və "hesabatları" sözü "hesabatı" sözü ilə əvəz edilsin;

13.2. dördüncü hissədə "qanunvericilik aktlarına dəyişikliklər və əlavələr" sözləri "qanunlarda dəyişikliklərin" sözləri ilə əvəz edilsin.

14. 22-ci maddə üzrə:

14.1. ikinci hissə aşağıdakı redaksiyada verilsin:

"Milli Məclisin Sədri Milli Məclisin deputatı haqqında təqdimatı əvvəlcə Milli Məclisin İntizam komissiyasına (bundan sonra - İntizam komissiyası) göndərir. İntizam komissiyası təqdimata baxaraq Milli Məclisin deputatının toxunulmazlığına xitam verilib-verilməməsi barədə rəy qəbul edir.";

14.2. üçüncü hissəyə aşağıdakı məzmunda ikinci cümlə əlavə edilsin:

"Həmin deputatın iclasda iştirakı mümkün olmadıqda bu məsələyə onun iştirakı olmadan baxılır.";

14.3. üçüncü hissənin beşinci cümləsi aşağıdakı redaksiyada verilsin:

"Milli Məclisin deputatının toxunulmazlığına xitam verilməsi barədə Milli Məclisin qərarı azı 63 səs çoxluğu ilə qəbul edilir.".

15. 23-cü maddə aşağıdakı redaksiyada verilsin:

"Maddə 23. Milli Məclisin deputatlığından məhrumetmə ilə əlaqədar məsələyə Milli Məclisdə baxılması qaydası Azərbaycan Respublikası Konstitusiyasının 89-cu maddəsinin I hissəsinin birinci bəndinin 4-cü, 6-cı və 7-ci yarımbəndlərində göstərilən əsaslar olduqda, Milli Məclisin Sədri Milli Məclisin deputatı haqqında məsələni İntizam komissiyasına göndərir. İntizam komissiyası bu məsələyə mandatından məhrum edilməsi nəzərdə tutulan deputatın iştirakı ilə 2 həftə müddətində baxıb müvafiq rəy qəbul edərək Milli Məclisin Sədrinə təqdim edir. Pozuntu halları rəydə öz təsdiqini tapdıqda, Milli Məclisin Sədri İntizam komissiyasının Milli Məclisin deputatının mandatından məhrum edilməsi barədə rəyini Azərbaycan Respublikasının Mərkəzi Seçki Komissiyasına göndərir.

Milli Məclisin deputatı Milli Məclisin iclasında mandatından imtina etdikdə və həmin imtina Milli Məclisin iclasının stenoqramına daxil edildikdə, Milli Məclisin deputatı bu imtinasını geri götürə bilməz. Bu halda Milli Məclisin Sədri iclasın stenoqramını və ya stenoqramdan çıxarışı Azərbaycan Respublikasının Mərkəzi Seçki Komissiyasına göndərir.".

16. Aşağıdakı məzmunda 23-1-ci maddə əlavə edilsin:

"Maddə 23-1. Milli Məclisin deputatının səlahiyyətlərinin itirilməsinin əsasları və bu məsələyə baxılması qaydası Azərbaycan Respublikası Konstitusiyasının 89-cu maddəsinin II hissəsinə əsasən, Milli Məclisin deputatı öz səlahiyyətlərini daimi icra edə bilmədikdə və bu Daxili Nizamnamənin 47-ci maddəsinin beşinci hissəsində göstərilən halda onun səlahiyyətləri itirilir.

Milli Məclisin Sədri əmək qabiliyyətini fasiləsiz olaraq 6 aydan çox müddətə tam itirən Milli Məclisin deputatı barəsində olan tibbi-sosial ekspert komissiyasının rəyini və ya fəaliyyət qabiliyyətsizliyi səbəbindən öz səlahiyyətlərini daimi icra edə bilməyən Milli Məclisin deputatı barəsində olan məhkəmənin qanuni qüvvəyə minmiş qərarını Milli Məclisin növbəti iclasında müzakirəyə təqdim edir. Müzakirə səlahiyyətlərinin itirilməsi nəzərdə tutulan deputatın iştirakı ilə keçirilir. Həmin deputatın iclasda iştirakı mümkün olmadıqda bu məsələyə onun iştirakı olmadan baxılır. İclasda iştirak edən Milli Məclisin deputatları yalnız deputatın səlahiyyətlərinin itirilməsi üçün yetərli əsasların olub-olmamasını aydınlaşdıra bilər, lehinə və ya əleyhinə çıxış edə bilərlər. Öz səlahiyyətlərini daimi icra edə bilməyən Milli Məclisin deputatının səlahiyyətlərinin itirilməsi barədə Milli Məclisin qərarı azı 63 səs çoxluğu ilə qəbul edilir.

Parlamentdaxili məsuliyyətə cəlb olunması ilə əlaqədar Milli Məclisin deputatının səlahiyyətlərinin itirilməsinin əsasları və müvafiq qərarın qəbul edilməsi qaydası bu Daxili Nizamnamənin 47-ci maddəsinin beşinci hissəsi ilə müəyyən edilir.".

17. Aşağıdakı məzmunda 23-2-ci maddə əlavə edilsin:

"Maddə 23-2. Milli Məclisin buraxılması

Azərbaycan Respublikası Konstitusiyasının 981-ci maddəsinin I hissəsinə əsasən, Milli Məclisin eyni çağırışı 1 il ərzində iki dəfə Azərbaycan Respublikasının Nazirlər Kabinetinə etimadsızlıq göstərdikdə və ya Azərbaycan Respublikası Konstitusiya Məhkəməsinin, Azərbaycan Respublikası Ali Məhkəməsinin və Azərbaycan Respublikası Mərkəzi Bankı İdarə Heyətinin kollegial fəaliyyəti üçün zəruri olan sayda üzvlüyə namizədləri Azərbaycan Respublikasının Prezidenti tərəfindən iki dəfə təqdim edildikdən sonra, bu Daxili Nizamnamənin 20-ci maddəsinin birinci hissəsində müəyyən edilmiş müddətdə təyin etmədikdə, habelə Azərbaycan Respublikası Konstitusiyasının 94-cü və 95-ci maddələrində, 96-cı maddəsinin II, III, IV və V hissələrində, 97-ci maddəsində göstərilən vəzifələrini aradan qaldırıla bilməyən səbəblər üzündən icra etmədikdə, Azərbaycan Respublikasının Prezidenti Milli Məclisi buraxır.".

18. 24-cü maddənin birinci hissəsinə "məsələlər" sözündən sonra "Milli Məclisin iclasına sədrlik edənin müəyyən etdiyi qaydada" sözləri əlavə edilsin.

19. 31-ci maddə üzrə:

19.1. birinci hissənin dördüncü bəndi aşağıdakı redaksiyada verilsin:

"Milli Məclisin Sədrinin müavinləri və Milli Məclisin komitələrinin sədrləri ilə birlikdə qanun layihələrinin hazırlanmasına dair Milli Məclisin illik planını tərtib edir, qarşılıqlı razılaşdırılması üçün Azərbaycan Respublikasının Prezidentinə təqdim edir və həmin illik plan əsasında hər növbəti sessiyanın qanunvericilik işləri planını təsdiq edilməsi üçün Milli Məclisə təqdim edir;";

19.2. birinci hissənin altıncı bəndi aşağıdakı redaksiyada verilsin:

"qəbul edilmiş qanunların ikinci nüsxəsinin son səhifəsində viza qoyur və imzalanması üçün Azərbaycan Respublikasının Prezidentinə təqdim edir;";

19.3. üçüncü hissə ləğv edilsin.

20. 38-ci maddənin ikinci hissəsinə "Məclisin" sözündən sonra "digər komitələrinin və" sözləri əlavə edilsin.

21. 41-ci maddə aşağıdakı redaksiyada verilsin:

"Maddə 41. İntizam komissiyası

Növbəti çağırış Milli Məclisin birinci iclasında və bundan sonra hər il Milli Məclisin yaz sessiyasının birinci iclasında İntizam komissiyası yaradılır. İntizam komissiyası Milli Məclisin deputatları sırasından 1 il müddətinə 11 üzvdən ibarət tərkibdə seçilir. Seçildikdən sonra İntizam komissiyası öz üzvləri sırasından komissiyanın sədrini, sədr müavinini və katibini seçir.

İntizam komissiyasının səlahiyyətlərinə aşağıdakılar aiddir:

1) "Azərbaycan Respublikası Milli Məclisi deputatının etik davranış qaydaları haqqında" Azərbaycan Respublikasının Qanunu ilə müəyyən edilmiş etik davranış qaydalarına riayət edilməsinə nəzarət etmək və bu məsələlərlə bağlı müraciətlərə baxmaq;

2) etik davranış qaydaları barədə Milli Məclisin deputatlarını məlumatlandırmaq, bu qaydalarla bağlı rəy və tövsiyələr vermək, həmin qaydaların pozulmasının qarşısının alınması üçün tədbirlər görmək və görülən tədbirlərə dair mütəmadi ümumiləşdirmələr aparıb Milli Məclisin Sədrinə məlumat vermək;

3) bu Daxili Nizamnamənin 45-ci maddəsinin birinci hissəsinin 1-ci bəndində göstərilən əsasa görə, Milli Məclisin, yaxud onun komitə və ya komissiyasının iclasına sədrlik edənin təqdimatı əsasında araşdırma aparmaq və müvafiq əsaslar aşkar etdikdə Milli Məclisin deputatı barəsində töhmət intizam tədbirinin tətbiq edilməsi haqqında qərar qəbul etmək;

4) bu Daxili Nizamnamənin 45-ci maddəsinin birinci hissəsinin 2-ci bəndində göstərilən əsasa görə, Milli Məclisin Sədrinin təqdimatı əsasında araşdırma aparmaq və müvafiq əsaslar aşkar etdikdə Milli Məclisin deputatı barəsində töhmət intizam tədbirinin tətbiq edilməsi haqqında qərar qəbul etmək;

5) bu Daxili Nizamnamənin 45-ci maddəsinin birinci hissəsinin 3-cü bəndində göstərilən əsaslara görə, Milli Məclisin Sədrinin təqdimatı əsasında araşdırma aparmaq və müvafiq əsaslar aşkar etdikdə Milli Məclisin deputatı barəsində töhmət intizam tədbirinin tətbiq edilməsi haqqında qərar qəbul etmək, yaxud Milli Məclisin deputatının səlahiyyətlərinin itirilməsi intizam tədbirinin tətbiq edilməsi barədə rəy qəbul edib Milli Məclisin müzakirəsinə təqdim etmək;

6) Milli Məclisin deputatının toxunulmazlığına xitam verilməsi haqqında Azərbaycan Respublikası Baş prokurorunun təqdimatına Milli Məclisin Sədrinin göndərişi əsasında baxıb müvafiq rəy qəbul etmək və Milli Məclisin müzakirəsinə təqdim etmək;

7) Azərbaycan Respublikası Konstitusiyasının 89-cu maddəsinin I hissəsinin birinci bəndinin 4-cü, 6-cı və 7-ci yarımbəndlərində göstərilən hallar olduqda, Milli Məclisin Sədrinin təqdimatı əsasında araşdırma aparmaq və müvafiq əsaslar aşkar etdikdə Milli Məclisin deputatının mandatından məhrum edilməsi haqqında qəbul etdiyi rəyi Milli Məclisin Sədrinə təqdim etmək;

8) bu Daxili Nizamnamədə nəzərdə tutulmuş digər səlahiyyətləri həyata keçirmək.

İntizam komissiyasının iclası onun azı 6 üzvü iştirak etdikdə səlahiyyətlidir. İntizam komissiyasının bütün qərarları (rəyləri) onun iclaslarında iştirak edən üzvlərinin sadə səs çoxluğu ilə qəbul edilir. Bu maddənin ikinci hissəsində göstərilən məsələlərə dair keçirilən iclaslarda İntizam komissiyasının rəyi ilə razı olmayan komissiya üzvü xüsusi rəyini protokola əlavə edə bilər və həmin xüsusi rəylə (7-ci bəndində göstərilən məsələyə dair xüsusi rəy istisna olmaqla) Milli Məclisin iclasında çıxış edə bilər.

İntizam komissiyasının rəy verilməsi məqsədi ilə keçirilən iclaslarında hüquqşünas ekspertlərin köməyindən istifadə edilə bilər. Ekspertlər İntizam komissiyasında əməkhaqqı ödənilməklə və ya ictimai əsaslarla işləyə bilərlər. Əməkhaqqı ödənilməklə işləyən ekspertlərin əmək münasibətləri Azərbaycan Respublikasının Əmək Məcəlləsi ilə tənzimlənir.".

22. 44-cü maddə üzrə:

22.1. birinci hissədə "daimi fəaliyyət göstərən dövlət büdcə nəzarəti" sözləri ", daimi fəaliyyət göstərən ali audit" sözləri ilə əvəz edilsin;

22.2. ikinci hissədə "7" rəqəmi "5" rəqəmi ilə əvəz edilsin;

22.3. üçüncü hissədə "iqtisadiyyat, maliyyə sahələrində iş təcrübəsinə malik olan ali təhsilli şəxslər olmalıdır" sözləri "hüquq, iqtisadiyyat və ya maliyyə sahələrində 5 ildən az olmayaraq iş təcrübəsinə malik olan ali təhsilli Azərbaycan Respublikasının vətəndaşları ola bilərlər" sözləri ilə əvəz edilsin.

23. 45-ci maddənin mətni aşağıdakı redaksiyada verilsin:

"Milli Məclisin deputatı aşağıdakı hallarda parlamentdaxili məsuliyyətə cəlb olunur:

1) "Azərbaycan Respublikası Milli Məclisi deputatının etik davranış qaydaları haqqında" Azərbaycan Respublikasının Qanunu ilə müəyyən edilmiş etik davranış qaydalarını pozduqda (kobud surətdə pozduğu hallar istisna olmaqla);

2) "Korrupsiyaya qarşı mübarizə haqqında" Azərbaycan Respublikası Qanununun 5.1-ci maddəsində müəyyən edilmiş tələblərə əməl etmədikdə və ya həmin qanunun 9-cu maddəsində göstərilən hüquqpozmaları törətdikdə (onlar inzibati və ya cinayət məsuliyyəti yaratmadıqda);

3) Milli Məclisin, yaxud onun komitə və komissiyalarının iclaslarında üzrsüz səbəbdən iştirak etmədikdə.

Milli Məclisin deputatı Azərbaycan Respublikası Konstitusiyasının 89-cu maddəsinin I hissəsinin birinci bəndində nəzərdə tutulmuş hallar üzrə parlamentdaxili məsuliyyətə cəlb oluna bilməz.".

24. 46-cı maddənin birinci abzası aşağıdakı redaksiyada verilsin:

"Bu Daxili Nizamnamənin 45-ci maddəsinin birinci hissəsində göstərilən əsaslara görə Milli Məclisin deputatı barəsində aşağıdakı intizam tədbirlərindən biri tətbiq edilir:".

25. 47-ci maddənin mətni aşağıdakı redaksiyada verilsin:

"Bu Daxili Nizamnamənin 45-ci maddəsinin birinci hissəsinin 1-ci bəndində göstərilən əsasa görə, Milli Məclisin, yaxud onun komitə və ya komissiyasının iclasına sədrlik edən tərəfindən Milli Məclisin deputatı barəsində xəbərdarlıq, söz kəsmə və ya iclas salonundan çıxarma intizam tədbiri tətbiq edilir, yaxud töhmət intizam tədbirinin tətbiq edilməsi üçün İntizam komissiyasına təqdimatla müraciət edilir. İntizam komissiyası 2 həftə müddətində apardığı araşdırma nəticəsində müvafiq əsaslar aşkar etdikdə Milli Məclisin deputatı barəsində töhmət intizam tədbirinin tətbiq edilməsi haqqında qərar qəbul edir.

Bu Daxili Nizamnamənin 45-ci maddəsinin birinci hissəsinin 2-ci bəndində göstərilən əsasa görə, Milli Məclisin Sədri Milli Məclisin deputatı barəsində İntizam komissiyasına təqdimatla müraciət edir. İntizam komissiyası 2 həftə müddətində apardığı araşdırma nəticəsində müvafiq əsaslar aşkar etdikdə Milli Məclisin deputatı barəsində töhmət intizam tədbirinin tətbiq edilməsi haqqında qərar qəbul edir.

Bu Daxili Nizamnamənin 45-ci maddəsinin birinci hissəsinin 3-cü bəndində göstərilən əsasa görə, Milli Məclisin və onun komitə və komissiyalarının iclaslarında üzrsüz səbəbdən azı dalbadal 4 və ya bir ayda üst-üstə 6 iclasda iştirak etməyən Milli Məclisin deputatı barəsində Milli Məclisin Sədri İntizam komissiyasına təqdimatla müraciət edir. İntizam komissiyası 1 həftə müddətində apardığı araşdırma nəticəsində müvafiq əsaslar aşkar etdikdə Milli Məclisin deputatı barəsində töhmət intizam tədbirinin tətbiq edilməsi haqqında qərar qəbul edir.

Milli Məclisin deputatı barəsində töhmət intizam tədbirinin tətbiq edilməsi haqqında qərar Milli Məclisin növbəti iclasında elan edilir.

Bu Daxili Nizamnamənin 45-ci maddəsinin birinci hissəsinin 3-cü bəndində göstərilən əsasa görə, Milli Məclisin Sədri Milli Məclisin növbəti sessiyasının bütün iclaslarında və ya il ərzində Milli Məclisin 15 iclasında üzrsüz səbəbdən iştirak etməyən Milli Məclisin deputatı barəsində İntizam komissiyasına təqdimatla müraciət edir. İntizam komissiyası 2 həftə müddətində apardığı araşdırma nəticəsində müvafiq əsaslar aşkar etdikdə Milli Məclisin deputatı barəsində deputat səlahiyyətlərinin itirilməsi intizam tədbirinin tətbiq edilməsi haqqında rəy qəbul edir və Milli Məclisin müzakirəsinə çıxarır. Bu məsələyə Milli Məclisin növbəti iclasında səlahiyyətlərinin itirilməsi nəzərdə tutulan deputatın iştirakı ilə baxılır. Həmin deputatın iclasda iştirakı mümkün olmadıqda bu məsələyə onun iştirakı olmadan baxılır. İclasda iştirak edən Milli Məclisin deputatları yalnız deputat səlahiyyətlərinin itirilməsi üçün yetərli əsasların olub-olmamasını aydınlaşdıra bilər, İntizam komissiyasının üzvlərinə suallar verə bilər və deputatın səlahiyyətlərinin itirilməsinin lehinə və ya əleyhinə çıxış edə bilərlər. Milli Məclisin deputatının səlahiyyətlərinin itirilməsi barədə Milli Məclisin qərarı azı 63 səs çoxluğu ilə qəbul edilir.".

26. 50-ci maddə ləğv edilsin.

27. 51-ci maddə aşağıdakı redaksiyada verilsin:

"Maddə 51. Bu Daxili Nizamnamənin icrasına nəzarət

Bu Daxili Nizamnamənin icrasına nəzarət Milli Məclisin rəhbərliyi tərəfindən həyata keçirilir.".

28. 53-cü maddə üzrə:

28.1. ikinci hissə dördüncü hissə hesab edilsin və aşağıdakı məzmunda ikinci və üçüncü hissələr əlavə edilsin:

"Azərbaycan Respublikası Konstitusiyasının 95-ci maddəsinin I hissəsinin 6-20-ci bəndlərində göstərilən məsələlər üzrə Milli Məclisin açıq iclaslarında qəbul etdiyi qərarlar 3 gün müddətində "Azərbaycan" qəzetində dərc edilir.

Milli Məclisin qərarları Azərbaycan Respublikasının Hüquqi Aktların Dövlət Reyestrinə daxil edilmək məqsədi ilə qəbul edildiyi gündən 3 gün keçənədək müvafiq icra hakimiyyəti orqanına müşayiət məktubu olmadan göndərilir.";

28.2. dördüncü hissəyə "Məclisin" sözündən sonra "açıq" sözü əlavə edilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 27 noyabr 2018-ci il*

---

# "Azərbaycan Respublikasının 1996-cı il 17 may tarixli 74-IQ nömrəli Qanunu ilə təsdiq edilmiş "Azərbaycan Respublikası Milli Məclisinin Daxili Nizamnaməsi"ndə dəyişiklik edilməsi haqqında" Azərbaycan Respublikasının 2018-ci il 27 noyabr tarixli 1336-VQD nömrəli Qanununun tətbiqi barədə

## Azərbaycan Respublikası Prezidentinin Fərmanı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 19-cu və 32-ci bəndlərini rəhbər tutaraq, "Azərbaycan Respublikasının 1996-cı il 17 may tarixli 74-IQ nömrəli Qanunu ilə təsdiq edilmiş "Azərbaycan Respublikası Milli Məclisinin Daxili Nizamnaməsi"ndə dəyişiklik edilməsi haqqında" Azərbaycan Respublikasının 2018-ci il 27 noyabr tarixli 1336-VQD nömrəli Qanununun qüvvəyə minməsi ilə əlaqədar həmin qanunun tətbiqini təmin etmək məqsədi ilə **qərara alıram:**

1. Azərbaycan Respublikasının Nazirlər Kabineti:

1.1. Azərbaycan Respublikası qanunlarının və Azərbaycan Respublikası Prezidentinin aktlarının "Azərbaycan Respublikasının 1996-cı il 17 may tarixli 74-IQ nömrəli Qanunu ilə təsdiq edilmiş "Azərbaycan Respublikası Milli Məclisinin Daxili Nizamnaməsi"ndə dəyişiklik edilməsi haqqında" Azərbaycan Respublikasının Qanununa uyğunlaşdırılması ilə bağlı təkliflərini üç ay müddətində hazırlayıb Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin;

1.2. Azərbaycan Respublikası Nazirlər Kabinetinin normativ hüquqi aktlarının həmin qanuna uyğunlaşdırılmasını üç ay müddətində təmin edib Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

1.3. mərkəzi icra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının həmin qanuna uyğunlaşdırılmasını nəzarətdə saxlasın və bunun icrası barədə beş ay müddətində Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

1.4. həmin qanundan irəli gələn digər məsələləri həll etsin.

2. Müəyyən edilsin ki, Azərbaycan Respublikasının 1996-cı il 17 may tarixli 74-IQ nömrəli Qanunu ilə təsdiq edilmiş "Azərbaycan Respublikası Milli Məclisinin Daxili Nizamnaməsi"nin 53-cü maddəsinin üçüncü hissəsində nəzərdə tutulmuş müvafiq icra hakimiyyəti orqanının səlahiyyətlərini Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi həyata keçirir.

3. Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi mərkəzi icra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının və normativ xarakterli aktların "Azərbaycan Respublikasının 1996-cı il 17 may tarixli 74-IQ nömrəli Qanunu ilə təsdiq edilmiş "Azərbaycan Respublikası Milli Məclisinin Daxili Nizamnaməsi"ndə dəyişiklik edilməsi haqqında" Azərbaycan Respublikasının Qanununa uyğunlaşdırılmasını təmin edib Azərbaycan Respublikasının Nazirlər Kabinetinə məlumat versin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 16 yanvar 2019-cu il*

## Azərbaycan Respublikasının Prezidenti İ.H.Əliyev və Rusiya Federasiyasının Prezidenti V.V.Putinin Azərbaycan və Rusiya arasında iqtisadi əməkdaşlığın prioritet istiqamətləri haqqında Birgə Bəyanatının təsdiq edilməsi barədə

### Azərbaycan Respublikasının Qanunu

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 95-ci maddəsinin I hissəsinin 4-cü bəndini rəhbər tutaraq **qərara alır:**

Azərbaycan Respublikasının Prezidenti İ.H.Əliyev və Rusiya Federasiyasının Prezidenti V.V.Putinin Azərbaycan və Rusiya arasında iqtisadi əməkdaşlığın prioritet istiqamətləri haqqında 2018-ci il sentyabrın 1-də Soçi şəhərində imzalanmış Birgə Bəyanat təsdiq edilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 18 dekabr 2018-ci il*

## "Azərbaycan Respublikası Hökuməti ilə Rusiya Federasiyası Hökuməti arasında elektrikötürücü xətlər və boru kəməri vasitəsilə keçirilən mallar üzərində gömrük nəzarəti haqqında" Sazişin təsdiq edilməsi barədə

### Azərbaycan Respublikasının Qanunu

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 95-ci maddəsinin I hissəsinin 4-cü bəndini rəhbər tutaraq **qərara alır:**

"Azərbaycan Respublikası Hökuməti ilə Rusiya Federasiyası Hökuməti arasında elektrikötürücü xətlər və boru kəməri vasitəsilə keçirilən mallar üzərində gömrük nəzarəti haqqında" 2018-ci il sentyabrın 1-də Soçi şəhərində imzalanmış Saziş təsdiq edilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 18 dekabr 2018-ci il*

## Nazirlər Kabinetinin mətbuat xidmətinin məlumatı

Azərbaycan Respublikasının Baş naziri Novruz Məmmədov ölkədə hava şəraitinin kəskin pisləşəcəyi ilə əlaqədar yanvarın 17-də və 18-də respublika ərazisində fəaliyyət göstərən bütün təhsil müəssisələrində təlim-tərbiyə prosesinin dayandırılması barədə sərəncam imzalayıb.

Bu barədə AZƏRTAC-a Nazirlər Kabinetindən məlumat verilib.

## XİN Azərbaycan və Ermənistan xarici işlər nazirlərinin Paris görüşünə dair açıqlama yayıb

Xarici İşlər Nazirliyinin mətbuat xidməti Azərbaycan Respublikasının xarici işlər naziri Elmar Məmmədyarov və Ermənistan Respublikasının xarici işlər naziri vəzifəsini icra edən Zöhrab Mnatsakanyan arasında ATƏT-in Minsk qrupunun həmsədrlərinin iştirakı ilə yanvarın 16-da Parisdə keçirilmiş görüş ilə bağlı açıqlama yayıb.

AZƏRTAC xəbər verir ki, açıqlamada tərəflər arasında 4 saatdan çox davam edən danışıqlarda daha çox anlayışın və etimadın qurulmasının əhəmiyyəti də daxil olmaqla faydalı və çox müsbət fikir mübadiləsinin aparıldığı bildirilir. Ardıcıl və nəticəyə yönəlik danışıqların qarşıdan gələn ay davam etdirilməsi razılaşdırılıb.

Tərəflər danışıqlar zamanı bir sıra məsələləri, o cümlədən hər iki tərəfin əhalisinin sülhə, təhlükəsizliyə və dayanıqlı regional inkişafa hazırlanması yollarını müzakirə ediblər.

## "Bakı-2019"a hazırlıqla bağlı Koordinasiya Komissiyasının texniki görüşü keçirilib

İyulun 20-28-də Bakıda keçiriləcək Avropa Gənclər Yay Olimpiya Festivalına hazırlıqla bağlı görülmüş işlərə nəzər salmaq və gələcək addımları müzakirə etmək məqsədilə Koordinasiya Komissiyasının texniki görüşü keçirilib.

Gənclər və İdman Nazirliyinin mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, görüşdə gənclər və idman naziri, "Bakı-2019" Təşkilat Komitəsinin sədr müavini Azad Rəhimov, Avropa Olimpiya Komitəsi Koordinasiya Komissiyasının sədri Corce Vişaçki və digər nümayəndələr iştirak ediblər.

İki gündür Bakıda səfərdə olan qonaqlar Azərbaycan hökumətinin Avropa Gənclər Olimpiya Festivalına hazırlıq istiqamətində gördüyü işlərin yüksək səviyyədə olduğunu bildirib, gələcək addımlarla bağlı fikir mübadiləsi aparıblar. Bakıda olduqları müddətdə qonaqlar Azərbaycan Milli İdman Tibb və Reabilitasiya İnstitutunda, Azərbaycan Milli Antidopinq Agentliyində və yarışların keçiriləcəyi bir sıra idman arenalarında olublar.

Görüşdə akkreditasiya prosesi, yarış cədvəlinə uyğun olaraq idmançıların arenalara vaxtında aparılıb-gətirilməsi, nəqliyyat, təhlükəsizlik, dopinq yoxlamaları, yarışa dair digər mühüm mövzular müzakirə edilib.

Avropa Gənclər Olimpiya Festivalının açılış mərasimi iyulun 21-də keçiriləcək. Bugünədək 49 ölkə yarışda iştirakını təsdiqləyib. Ümumilikdə Avropanın 50 ölkəsindən 3600-dən çox idmançı və texniki nümayəndə heyəti yarışa qatılmaq üçün ölkəmizə təşrif buyuracaq. On iki arenada idmanın on növü üzrə (bədii gimnastika, atletika, basketbol, velosiped, həndbol, cüdo, üzgüçülük, tennis, voleybol, güləş) keçiriləcək yarışlara ümumilikdə 2500-dən çox könüllü cəlb olunacaq.

## Fransanın sabiq Prezidenti Azərbaycan-Fransız Universitetində olub




Fransa Respublikasının sabiq Prezidenti Nikola Sarkozi ölkəmizə səfəri çərçivəsində yanvarın 16-da Azərbaycan-Fransız Universitetində (UFAZ) olub.

AZƏRTAC xəbər verir ki, Nikola Sarkozi əvvəlcə Azərbaycan Dövlət Neft və Sənaye Universitetinin nəzdində fəaliyyət göstərən Azərbaycan-Fransız Universitetində nümayiş etdirilən sərgiyə baxıb. Sərgidə Azərbaycan tələbələrinin yay məktəbi zamanı Strasburqda çəkdikləri fotolar, eləcə də Azərbaycan Xalq Cümhuriyyətinə dair arxiv sənədləri nümayiş olunur.

Nikola Sarkozi universitetin tələbələri ilə söhbət edib, bu ali təhsil ocağında fəaliyyət göstərən laboratoriyalarla tanış olub.

Fransanın sabiq Prezidenti tələbələr qarşısındakı çıxışına "Sizin çox güclü və önəmli ölkəniz var" sözləri ilə başlayıb. N.Sarkozi vurğulayıb ki, Xəzər dənizinin sahilində yerləşməsi mükəmməl ölkə olan Azərbaycana daha böyük üstünlüklər gətirir. O qeyd edib ki, Azərbaycanın gələcəyi sayılan gənclər daim öz üzərlərində işləməlidirlər.

Sonda sabiq Prezident Nikola Sarkozi universitetin xatirə kitabına ürək sözlərini yazıb.

## Son 5 ildə Azərbaycan və İran prezidentləri 12 dəfə görüşüblər



Azərbaycanda səfərdə olan İran İslam Respublikasının Silahlı Qüvvələrinin Baş Qərargah rəisi, general-leytenant Məhəmməd Baqerinin rəhbərlik etdiyi nümayəndə heyəti dünən Milli Məclisdə olub.

Parlamentin Sədri Oqtay Əsədovla keçirilən görüşdə qeyd edilib ki, Azərbaycan-İran ikitərəfli münasibətləri son illər ərzində bütün sahələrdə inkişaf edib. Bu səfər isə hərbi sahədəki əlaqələrin daha da genişlənməsinə öz töhfəsini verəcək.

İki ölkə arasında parlamentlərarası əlaqələr üzrə işçi qruplarının da fəal əməkdaşlıq münasibətləri qurduqlarını, beynəlxalq təşkilatlarda bir-birlərini müdafiə etdiklərini söyləyən Oqtay Əsədov bildirib ki, əlaqələrin yüksələn xətlə inkişaf etməsinin səbəbi hər iki ölkənin prezidentlərinin qarşılıqlı səfərləri və apardıqları danışıqlardır. Son 5 ildə dövlət başçıları 12 dəfə görüşüblər. Bu da onu təsdiq edir ki, Azərbaycanla İran arasında siyasi münasibətlər ən yüksək səviyyədədir.

İki ölkə arasındakı iqtisadi münasibətlər də inkişaf etməkdədir. Əgər 2017-ci ildə dövlətlərarası ticarət dövriyyəsi 257 milyon dollar idisə, 2018-ci ildə bu rəqəm 400 milyon dollara yüksəlib. Bu da 40 faiz artım deməkdir. 5 il ərzində qarşılıqlı olaraq 24 biznes forum keçirilib. Ancaq iki ölkə arasında iqtisadi münasibətlərin daha da inkişaf etdirilməsi üçün real imkanlar mövcuddur.

Milli Məclisin Sədri "Şimal-Cənub" Beynəlxalq Nəqliyyat Dəhlizinin reallaşması istiqamətində görülən işlərdən də söz açaraq vurğulayıb ki, bu dəhliz istifadəyə verildikdən sonra Azərbaycan və İran arasındakı iqtisadi münasibətlər daha da inkişaf edəcək.

Azərbaycanla İran arasında möhkəm dostluq bağlarının olduğunu deyən Məhəmməd Baqeri deyib ki, iki ölkə arasındakı əlaqələr gündən-günə inkişaf edir. Çünki bütün istiqamətlərdə qarşılıqlı səfərlər intensivləşib. Bu səfər isə müdafiə sahəsindəki əlaqələrə müsbət təsir edəcək. Hərbi sahədə əməkdaşlığın yeni inkişaf mərhələsində olduğunu söyləyən general-leytenant diqqətə çatdırdı ki, İran Prezidenti Həsən Ruhani iki ölkə və xalqlar arasında əlaqələrin bundan sonra daha çox güclənməsini zəruri hesab edir.

Görüşdə vurğulanıb ki, qarşılıqlı səfərlər, hökumətlərarası komissiyaların qəbul etdikləri qərarlar Azərbaycan-İran münasibətlərini daha möhkəmləndirməyə və bütün sahələrdə əməkdaşlığın yüksələn xətlə inkişafına xidmət edəcək.

***Rəşad BAXŞƏLİYEV,***
***Fərman BAĞIROV (foto),***
***"Azərbaycan"***

## Azərbaycan-İran hərbi əməkdaşlığının inkişaf perspektivləri müzakirə olunub

Azərbaycan Respublikasının müdafiə naziri general-polkovnik Zakir Həsənovun dəvəti ilə İran İslam Respublikası Silahlı Qüvvələrinin Baş Qərargah rəisi general-leytenant Məhəmməd Baqeri Azərbaycanda rəsmi səfərdədir. Yanvarın 16-da Müdafiə Nazirliyində hər iki ölkənin nümayəndə heyətlərinin görüşü keçirilib.



Müdafiə Nazirliyinin mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, əvvəlcə qonaqlar Şəhidlər xiyabanında ölkəmizin müstəqilliyi, ərazi bütövlüyü uğrunda şəhid olan vətəndaşlarımızın xatirəsini yad edərək məzarları üzərinə əklillər və gül dəstələri qoyublar.

Sonra Müdafiə Nazirliyində təkbətək və geniş tərkibdə görüşlər keçirilib.

Söhbət zamanı general-polkovnik Z.Həsənov İranın Silahlı Qüvvələrinə məxsus təyyarənin qəzaya uğraması nəticəsində baş vermiş faciə ilə əlaqədar bir daha başsağlığı verib.

General-leytenant M.Baqerinin Azərbaycana səfərini ölkələrimiz arasında dostluq əlaqələrinin yüksək göstəricisi kimi dəyərləndirən general-polkovnik Z.Həsənov ikitərəfli münasibətlərdə qarşılıqlı etimadın yaradılmasında və möhkəmləndirilməsində ümummilli lider Heydər Əliyevin və dövlət başçısı İlham Əliyevin xidmətlərini xüsusi vurğulayıb.

Regiondakı hərbi-siyasi vəziyyətdən danışan general-polkovnik Z.Həsənov Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin regional sabitliyə ciddi təhdid olaraq qaldığını qonağın diqqətinə çatdırıb. Nazir, həmçinin münaqişənin ölkəmizin ərazi bütövlüyü, suverenliyi çərçivəsində həll olunması istiqamətində səylərinə görə İran tərəfinə minnətdarlığını bildirib.

Xalqlarımız arasında dini, tarixi, mədəni əlaqələrin mehriban dostluq ənənələrinə əsaslandığını, dövlətlərimizin bir çox istiqamətlərdə, o cümlədən hərbi sahədə də əməkdaşlığı üçün geniş potensialın olduğunu deyən general-leytenant M.Baqeri İranın ölkəmizin ərazi bütövlüyünü və münaqişənin həlli ilə bağlı ədalətli mövqeyini dəstəklədiyini, eyni zamanda, ölkəsi tərəfindən Azərbaycana hərtərəfli dəstəyin veriləcəyini xüsusi vurğulayıb.

Görüşdə Azərbaycan ilə İran arasında hərbi, hərbi-texniki, hərbi tibb, hərbi təhsil üzrə əməkdaşlığın inkişaf perspektivləri, terrorizmlə mübarizə, regional təhlükəsizlik, ekspert qruplarının qarşılıqlı səfərlərinin təşkili və maraq doğuran digər məsələlər barədə ətraflı fikir mübadiləsi aparılıb.

Yekunda tərəflər arasında görüşün protokolu imzalanıb.

## Məhkəmə fəaliyyətinin təkmilləşdirilməsi üzrə ardıcıl tədbirlər davam etdirilir

Yanvarın 16-da Məhkəmə-Hüquq Şurasında Ali Məhkəmənin hakimlərinin iştirakı ilə növbəti müşavirə keçirilib.

AZƏRTAC xəbər verir ki, tədbirdə Məhkəmə-Hüquq Şurasının sədri, ədliyyə naziri Fikrət Məmmədov və Ali Məhkəmənin sədri Ramiz Rzayev çıxış edərək Prezident İlham Əliyevin rəhbərliyi ilə məhkəmə sistemində aparılan ardıcıl və məqsədyönlü islahatların bu sahədə işin müasir tələblər səviyyəsində qurulmasına, məhkəmələrə ictimai etimadın yüksəldilməsinə yönəldiyini bildiriblər.

Qeyd olunub ki, insan hüquq və azadlıqlarının etibarlı müdafiəsində, ədalət mühakiməsinin səmərəliliyinə nail olunmasında, vahid məhkəmə təcrübəsinin formalaşmasında Ali Məhkəmə mühüm rol oynayır. Ona görə bu məhkəmədə məhz hazırlıqlı, ən peşəkar, yüksək mənəvi keyfiyyətlərə malik hakimlər işləməlidirlər ki, qanunun aliliyi, məhkəmə qərarlarının ədalətliliyi təmin olunsun. Bu məsələdə hakimlərin fəaliyyətinin prinsipial qiymətləndirilməsi institutunun tətbiqinin mühüm əhəmiyyəti vurğulanıb.

Müşavirədə insanlarda haqlı narazılıq doğuran nöqsan və çatışmazlıqların aradan qaldırılması, Hakimlərin Etik Davranış Kodeksinin tələblərinə dönmədən əməl edilməsi, qeyri-prosessual münasibətlərin qarşısının alınması, mənfi halların yolverilməzliyi qeyd olunub.

Həmçinin mövcud problemlərin həlli yolları təhlil edilib, vətəndaşların hüquq və azadlıqlarının təmin olunması, süründürməçiliyə və korrupsiyaya şərait yaradan hallara yol verilməməsi, ədalət mühakiməsinə ictimai etimadın artırılması və sair məsələlərlə bağlı tövsiyələr verilib.

## "Qriqorian kilsəsi Səfəvilər dövlətinə qarşı casusluq aləti kimi (XVII əsr-XVIII əsrin ilk dörddəbiri)" kitabının təqdimatı olub



Yanvarın 16-da Azərbaycan Milli Elmlər Akademiyası (AMEA) Qafqazşünaslıq İnstitutunun təşkilatçılığı ilə Azərbaycan Respublikası Prezidenti Administrasiyasının rəhbəri akademik Ramiz Mehdiyevin "Qriqorian kilsəsi Səfəvilər dövlətinə qarşı casusluq aləti kimi (XVII əsr-XVIII əsrin ilk dörddəbiri)" kitabının təqdimat mərasimi keçirilib.

AZƏRTAC xəbər verir ki, tədbirdə AMEA-nın vitse-prezidenti, akademik İsa Həbibbəyli akademik Ramiz Mehdiyevin ictimai-siyasi fəaliyyətini qeyd etməklə yanaşı, Azərbaycan dövlətinin ideoloji əsaslarını təşkil edən bir sıra sanballı tədqiqat əsərlərinin müəllifi olduğunu bildirib. İ.Həbibbəyli "Qriqorian kilsəsi Səfəvilər dövlətinə qarşı casusluq aləti kimi (XVII əsr-XVIII əsrin ilk dörddəbiri)" kitabının da akademikin əvvəlki fundamental tədqiqatları kimi böyük elmi əhəmiyyətə malik olduğunu, eyni zamanda, tarix, beynəlxalq münasibətlər, konfliktologiya, qafqazşünaslıq istiqamətində yeni tədqiqatlar üçün imkanlar açdığını söyləyib. O, görkəmli dövlət xadimi, akademik Ramiz Mehdiyevin bu kitabını zəngin arxiv materialları, mühüm tarixi qaynaqlar, hərtərəfli müqayisələr, dərin təhlillər əsasında yazılmış, tarixşünaslığımıza və geniş ölçüdə azərbaycanşünaslığa töhfə olan əsər kimi dəyərləndirib. AMEA-nın vitse-prezidenti monoqrafiyanın milli tarixçiliyimizdə və cəmiyyətşünaslıqda büsbütün yeni baxışları əks etdirən orijinal bir araşdırma olaraq yeni tədqiqatlar silsiləsinin meydana çıxmasına etibarlı zəmin yaratdığını vurğulayıb. Bildirib ki, akademik Ramiz Mehdiyevin Səfəvilər, Nadir şah haqqında tədqiqatları Azərbaycan tarixşünaslıq elmində ən mühüm nailiyyətlərdən biridir. "Qriqorian kilsəsi Səfəvilər dövlətinə qarşı casusluq aləti kimi (XVII əsr-XVIII əsrin ilk dörddəbiri)" monoqrafiyası da bu tədqiqatların məntiqi davamı olaraq, həm dəyərli elmi mənbə, həm də gənc tədqiqatçılar üçün istiqamətverici proqramdır.

Sonra Qafqazşünaslıq İnstitutunun direktoru, AMEA-nın müxbir üzvü, professor Musa Qasımlı məruzə ilə çıxış edib. O bildirib ki, kitab Qafqazda ermənilər tərəfindən yaradılmış münaqişələrin tarixi köklərini və gerçək mahiyyətini dərk etmək üçün ciddi faktlar verir. Maraqlı məsələlərdən biri ermənilərin tarixboyu müxtəlif dövlətlərə qarşı həyata keçirdikləri xəyanət siyasətinin elə onların öz mənbələrinin və müəlliflərinin əsərlərindən gətirilən faktlarla sübuta yetirilməsidir.

Qeyd edilib ki, kitab Qərb dövlətlərinin, habelə çar Rusiyasının əlində Səfəvilər dövlətinə qarşı casusluq, şantaj və separatizm vasitəsinə çevrilmiş Qriqorian kilsəsinin kəşfiyyat və siyasi-ideoloji fəaliyyətinin dərk edilməsi və ətraflı işıqlandırılmasında mühüm vasitədir.

Akademik Ramiz Mehdiyevin bugünə qədər Səfəvilərin tarixinə dair önəmli tədqiqatlar apardığını, kitab, monoqrafiya və məqalələr çap etdirdiyini deyən M.Qasımlı yeni nəşrin digərlərindən fərqləndiyini, burada tarixi faktlarla ermənilərin Səfəvilərə qarşı casusluq etməsinin sübuta yetirildiyini söyləyib. "Əsərdə Qriqorian kilsəsinin mahiyyəti açılır, eyni zamanda, erməni tacirlərinin casusluq fəaliyyəti göstərilir. Biri ideoloji əsas, o biri maddi əsas kimi verilir. Əsərdən çıxan nəticə budur ki, biz tarixçilər erməni psixologiyasını dərindən öyrənməliyik", - deyə M.Qasımlı bildirib.

AMEA-nın Tarix İnstitutunun şöbə müdiri, tarix elmləri doktoru Şahin Fazil Fərzəlibəyli müstəqillik illərində Azərbaycan tarix elminin inkişafında akademik Ramiz Mehdiyevin rolundan danışıb. O, akademik Ramiz Mehdiyevi aktual, tədqiqi zəruri olan kəskin problemləri öncədən görmək və yüksək elmi səviyyədə araşdırmaq qabiliyyəti ilə fərqlənən tarixçi kimi xarakterizə edib. Akademikin bu əsərinin Azərbaycan tarix elmində Qriqorian kilsəsinin XVII əsr-XVIII əsrin birinci rübündə Səfəvi dövlətinə qarşı kəşfiyyat və siyasi-ideoloji fəaliyyətinin ilk dəfə ətraflı araşdırılması və işıqlandırılması faktı kimi olduqca əhəmiyyətli olduğunu diqqətə çatdırıb.

Qafqazşünaslıq İnstitutu direktorunun elmi işlər üzrə müavini, tarix üzrə fəlsəfə doktoru Ramilə Dadaşova, ermənişünaslıq şöbəsinin müdiri, tarix elmləri doktoru Qasım Hacıyev, Qafqaz siyasəti şöbəsinin müdiri, tarix üzrə fəlsəfə doktoru Elnur Kəlbizadə, Bakı Dövlət Universitetinin tarix fakültəsinin dekanı, tarix elmləri doktoru Azad Rzayev kitabın elmi məziyyətləri haqqında danışıblar. Qeyd olunub ki, nəşrindən keçən qısa müddət ərzində nəinki respublikamızda, eləcə də onun hüdudlarından kənarda elm adamlarının böyük marağına səbəb olmuş bu kitab Səfəvilər dövlətinə qarşı casusluq, şantaj və separatizm vasitəsinə çevrilmiş Qriqorian kilsəsinin kəşfiyyat və siyasi-ideoloji fəaliyyətinin dərk edilməsi və ətraflı işıqlandırılması üçün ilk uğurlu addımdır. Əsər əzəli Azərbaycan torpaqlarının bir neçə əsr davam edən işğalında Eçmiədzinin roluna, ermənilərin ərazi iddialarının mənbələrinə tamamilə yeni baxışdır.

Qeyd edək ki, Azərbaycan Respublikası Prezidenti Administrasiyasının rəhbəri akademik Ramiz Mehdiyevin "Qriqorian kilsəsi Səfəvilər dövlətinə qarşı casusluq aləti kimi (XVII əsr-XVIII əsrin ilk dörddəbiri)" kitabı "Şərq-Qərb" nəşriyyatında çapdan çıxıb.

## Ermənistan silahlı qüvvələrinin bölmələri sutka ərzində atəşkəs rejimini 26 dəfə pozub

Ermənistan silahlı qüvvələrinin bölmələri sutka ərzində cəbhənin müxtəlif istiqamətlərində atəşkəs rejimini 26 dəfə pozub.

Müdafiə Nazirliyinin mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, Ermənistan Respublikası Noyemberyan rayonunun Voskepar kəndində, İcevan və Krasnoselsk rayonları ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərdən Azərbaycan Respublikasının Qazax rayonunun Qaymaqlı, Məzəm kəndlərində, Gədəbəy rayonu ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərimiz atəşə tutulub.

Tərtər rayonunun işğal altında olan Göyarx, Ağdam rayonunun Şıxlar, Şirvanlı, Yusifcanlı, Mərzili, Füzuli rayonunun Qaraxanbəyli, Horadiz kəndləri yaxınlığında, həmçinin Goranboy, Tərtər, Ağdam və Xocavənd rayonları ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərdən də ordumuzun mövqelərinə atəş açılıb.







# Azərbaycan Xəzərə tam nəzarət edir

*Əvvəli 1-ci səh.*























Bu mərkəzdə gəmilərin hərəkətinə nəzarət prosesini müşahidə etdik. Burada quraşdırılmış yüksək texnoloji avadanlıqlar sayəsində Azərbaycan sularında üzən bütün gəmilərin hərəkətini izləmək mümkün olur, onlarla əlaqə saxlanılır, mütəmadi məlumatlar verilir.

Dövlət Dəniz Agentliyinin mətbuat katibi Tural Museyibov məlumat verir ki, Dəniz Üzgüçülüyünün Təhlükəsizliyi Mərkəzinin strukturuna daxil olan Uzaq Məsafədən Tanınma və İzləmə Milli Mərkəzi "Dənizdə insan həyatının mühafizəsinə dair Beynəlxalq Konvensiya"nın tələblərinin yerinə yetirilməsi məqsədilə Xəzəryanı ölkələrdə ilk dəfə olaraq Azərbaycanda yaradılıb və ən son nəsil naviqasiya və müşahidə avadanlıqları ilə təchiz edilib: "Azərbaycan Respublikası 1995-ci ildən beynəlxalq dəniz təşkilatının tam hüquqlu üzvü olandan sonra tərəfdar çıxdığı 20-dən artıq beynəlxalq konvensiyaya qoşulub. Azərbaycanın dəniz nəqliyyatı sahəsində həyata keçirdiyi siyasət, məhz həmin beynəlxalq konvensiyaların tələblərinə əsasən reallaşdırılır. Prezident İlham Əliyevin təkidi, şəxsi təşəbbüsü sayəsində Xəzəryanı dövlətlər içərisində ilk dəfə Azərbaycanda Dövlət Dəniz Agentliyinin Uzaq Məsafədən Tanınma və İzləmə Milli Mərkəzi yaradılıb. Milli Mərkəz yüksək maddi-texniki baza və yüksək texnoloji avadanlıqla təmin edilib".

## Peyk və radarlar vasitəsilə gəmilərin izlənməsi

İlk dəfə olaraq məhz Azərbaycanda ən son nəsil naviqasiya və müşahidə avadanlıqları ilə təchiz edilmiş Uzaq Məsafədən Tanınma və İzləmə Milli Mərkəzinin əsas funksiyaları Azərbaycanın ərazi sularında üzən gəmilərin mövqeyinin peyk və radarlar vasitəsilə izlənilməsindən, onların hərəkətinin təhlükəsizliyinin təmin edilməsindən, naviqasiya xəbərdarlıqlarına və hava haqqında proqnozlara dair müvafiq məlumatların gəmilərə çatdırılmasından, "Azərbaycan Respublikasının ərazi sularında üzmə Qaydaları"na riayət olunmasına nəzarətin həyata keçirilməsindən ibarətdir.

Bununla yanaşı, mərkəz gəmilərdən daxil olan həyəcan siqnallarının və digər məlumatların aidiyyəti dövlət qurumlarına çatdırılmasını təmin edir, beynəlxalq təşkilatlar daxil olmaqla, digər ölkələrin eyni adlı milli mərkəzləri və gəmiçilik şirkətləri ilə mütəmadi olaraq operativ əlaqə yaradır və informasiya mübadiləsi həyata keçirir.

Azərbaycan üzrə dəniz nəqliyyatı ilə daşımaların təhlükəsiz həyata keçirilməsi məqsədilə Dövlət Dəniz Agentliyi tərəfindən dəniz üzgüçülüyünün təhlükəsizliyinin səmərəli və effektiv təşkili, eləcə də gəmilərin limanlara girişi və çıxışı zamanı vaxt itkisinin qarşısının alınması istiqamətində məqsədyönlü işlər görülür və həmin işlər ciddi nəzarətdə saxlanılır. Azərbaycanın sahil boyu bütün ərazilərində rabitə stansiyaları mövcuddur. Bu stansiyaların təhlükəsizliyinin təminatı və stansiyalarda baş verə biləcək hər hansı hadisənin qarşısının operativ şəkildə alınmasını təmin etmək üçün bütün stansiyalar daim online kameraların müşahidəsi altındadır.

## Təhlükəsizliyin təşkili

Qurumun digər funksiyalarına dəniz naviqasiya avadanlıqlarının işlək vəziyyətdə olmasına nəzarət etmək, kanallarda dibdərinləşdirmə işlərinin təşkili və gəmilərə dənizdə yaranmış təhlükəli vəziyyətlərdən çıxılması üçün məsləhət və tövsiyələr vermək, həmçinin dəniz üzgüçülüyünün təhlükəsizliyinin daha səmərəli təşkilini təmin etməkdən ibarətdir.

Həmçinin gəmilərdə liman və bayraq nəzarəti ilə əlaqədar yoxlamaların həyata keçirilməsi istiqaməti üzrə fəaliyyət göstərən mərkəzin gəminin üzgüçülüyə yararlı olmadıqda, gəminin yüklənilməsinə, təchizatına, gəmi heyətinin komplektləşdirilməsinə dair tələblər pozulduqda və ya gəmidə olan insanların həyatına, sağlamlığına təhlükə, habelə gəminin dəniz mühitinə zərər vurmaq təhlükəsi yarada biləcək digər çatışmazlıqlar olduqda, gəmi sənədlərinə olan tələblər pozulduqda, gəminin limandan çıxışını qadağan etmək hüququ onun nizamnaməsində əks olunub.

Azərbaycan üzrə dəniz nəqliyyatı ilə daşımaların təhlükəsiz həyata keçirilməsi məqsədilə Dövlət Dəniz Agentliyi tərəfindən dəniz üzgüçülüyünün təhlükəsizliyinin səmərəli və effektiv təşkili, eləcə də gəmilərin limanlara girişi və çıxışı zamanı vaxt itkisinin qarşısının alınması istiqamətində məqsədyönlü işlər görülür və həmin işlər ciddi nəzarətdə saxlanılır.

## Xilasetmə əməliyyatlarının düzgün koordinasiyası

Dövlət Dəniz Agentliyi Fövqəladə Hallar Nazirliyi, Müdafiə Nazirliyinin Hərbi Dəniz Qüvvələri, Sərhəd Qoşunlarının Sahil Mühafizə Xidməti, Ekologiya Nazirliyi ilə sıx əməkdaşlıq edir.

Milli Mərkəzin fəaliyyəti Xəzərin Azərbaycan sularında hər hansı hadisə baş verəcəyi təqdirdə, hadisənin nəticələrinin aradan qaldırılması və ya baş verə biləcək hadisənin qarşısının alınması istiqamətində adıçəkilən qurumlarla birgə həyata keçiriləcək axtarış xilasetmə əməliyyatlarının düzgün koordinasiya edilməsi üçün mühüm əhəmiyyət kəsb edir.

Məsələn, ETSN Milli Hidrometeorologiya Departamentinin Hidrometeoroloji Proqnozlar Bürosundan Dövlət Dəniz Agentliyinin Milli Mərkəzinə xüsusi təhlükəli hidrometeoroloji hadisə haqqında məlumat daxil olan andan, məlumatlar təcili olaraq mərkəzin mütəxəssisləri tərəfindən təhlil edilir və müvafiq tədbirlərin həyata keçirilməsi planlaşdırılır. Gəmi sahibləri, liman kapitanları, liman nəzarət müfəttişləri müvafiq tədbirlərin həyata keçirilməsi və xidmətin gücləndirilməsi ilə bağlı Milli Mərkəz tərəfindən təlimatlandırılır. Gəmilərin Hərəkətinin İdarəetmə Xidmətinin ərazisində lövbərdə duran və hərəkətdə olan gəmilərə "NAVTEX" və digər rabitə əlaqəsi vasitəsilə hadisə ilə bağlı məlumatlar ötürülür, müvafiq təlimatlar verilir. Bununla yanaşı, dənizdə neft-qaz platformalarının aid olduğu qurumlar hadisə ilə bağlı məlumatlandırılır.

Milli Mərkəz, eyni zamanda FHN-nin Böhran Vəziyyətlərində İdarəetmə Mərkəzi, Müdafiə Nazirliyinin Hərbi Dəniz Qüvvələri, Dövlət Sərhəd Xidmətinin Sahil Mühafizəsi növbə xidmətləri ilə qarşılıqlı məlumat mübadiləsi həyata keçirir. Canlı bağlantılar yaradılaraq, mövcud vəziyyətlə bağlı məlumatlar əldə edilir.

Bu da hər hansı hadisə zamanı çevik reaksiya verilməsi və düzgün şəkildə axtarış-xilasetmə əməliyyatlarının təminatı üçün mühüm əhəmiyyət kəsb edir.

## Xarici sularda üzən gəmilərimiz də nəzarətdədir





Azərbaycanın ərazi sularında, həmçinin dövlət bayrağımız altında xarici sularda üzən gəmilərə də peyk vasitəsilə nəzarət həyata keçirilir. Tural Müseyibov deyir ki, nəinki xaricdə üzən gəmiləri izləmək, hətta istənilən anda müasir və xüsusi rabitə avadanlıqları sayəsində gəmilərlə rabitə əlaqəsi saxlamaq da olur.

Bundan əlavə, Milli Mərkəzdə mövcud olan xüsusi və müasir rabitə avadanlıqlarından biri də aviasiya rabitəsidir. Aviasiya rabitəsi axtarış-xilasetmə əməliyyatları zamanı baş verən hadisənin nəticələrinin aradan qaldırılması, baş verə biləcək hadisənin qarşısının alınmasında effektiv və çevik reaksiya verilməsində vacib rol oynayır.

## Uğurlu beynəlxalq əməkdaşlıq

Əlavə edək ki, yanvarın 7-də Qara dənizdə "Volgabalt 214" gəmisinin qəzaya uğraması zamanı orada olan iki azərbaycanlı haqqında operativ məlumatları da ictimaiyyətə Dövlət Dəniz Agentliyi çatdırdı.

Mətbuat xidmətinin rəhbəri bununla əlaqədar dedi ki, Milli Mərkəz eyniadlı anoloji mərkəzlərlə daim əlaqədədir: "Məsələn, bir müddət əvvəl Rusiyanın ərazisində "Surov" adlı bir gəmi suya oturmuşdu. Bizim mərkəzin mütəxəssisləri ekipaj üzvündən iki nəfərin Azərbaycan vətəndaşı olduğunu bilən kimi, qarşı tərəfin axtarış-xilasetmə mərkəzi ilə dərhal əlaqə saxladılar, birbaşa sorğu göndərdilər. Bu sorğuya çox operativ cavab alındı və ekipaj üzvləri haqqında da məlumat əldə etdik. Onların vəziyyəti, sağlıq durumu, Azərbaycan ərazilərinə necə ötürülmələri barədə informasiyalar verildi.

O cümlədən, Türkiyədə baş verən gəmi qəzası ilə bağlı məlumat əldə edilən kimi, dərhal Türkiyənin Samsun şəhərinin dəniz axtarış-xilasetmə mərkəzi ilə əlaqə saxladıq. Günün istənilən saatında, hətta gecə belə bizim mütəxəssislərin qarşı tərəfdən əldə etdikləri məlumatı Azərbaycan mediasına, ictimaiyyətinə çatdırdıq. Mərkəzin mütəxəssisləri xarici sularda da baş verən istənilən hadisədə Azərbaycan vətəndaşları ilə əlaqədar hər hansı məlumat varsa, dərhal əldə edilməsi üçün bütün qüvvələrini səfərbər edirlər".

Milli Mərkəz, həmçinin qonşu Gürcüstan Respublikasının xarici sularda üzən gəmilərinin izlənilməsini də təmin edərək həmin ölkəyə bu istiqamətdə kömək göstərir.

## 174 dəniz dövləti sırasında ən qabaqcıl ölkə

Milli Mərkəz öz texniki təchizatı baxımından bir çox qabaqcıl Avropa dövlətlərinin oxşar qurumlarından daha üstündür. Milli mərkəzdə işə cəlb olunmuş mütəxəssislər xarici ölkələrin müvafiq mərkəzlərində xüsusi təlimlər keçiblər.

Respublikamızda dəniz üzgüçülüyünün təhlükəsizliyinin təmin olunmasında görülmüş işlər və təşəkkül tapmış mövcud dövlət nəzarət üsulu mütəmadi olaraq ölkəmizə səfərlər edən müstəqil beynəlxalq ekspertlər, habelə Beynəlxalq Dəniz Təşkilatı və Avropa Dəniz Təhlükəsizliyi Agentliyi tərəfindən müsbət dəyərləndirilir. Eyni zamanda Dövlət Dəniz Agentliyi tərəfindən mütəmadi olaraq dəniz üzgüçülüyünün təhlükəsizliyi sahəsində görülmüş işlər və dəniz üzgüçülüyünün təhlükəsizliyinin təmin olunması səviyyəsi barədə adıçəkilən təşkilatlara illik hesabatlar təqdim edilir.

Ölkəmiz Beynəlxalq Dəniz Təşkilatına üzv olduğu tarixdən etibarən "Dənizdə insan həyatının mühafizəsinə dair Beynəlxalq Konvensiya" (SOLAS-74), "Dənizin gəmilərdən çirkləndirilməsinin qarşısının alınmasına dair Beynəlxalq Konvensiya" (MARPOL), "Dənizçilərin hazırlanmasına, onlara diplom verilməsinə və növbə çəkməyə dair 1978-ci il tarixli Beynəlxalq Konvensiya" (STCW), "Dənizdə gəmilərin toqquşmasının qarşısının alınmasına dair beynəlxalq qaydalar haqqında Konvensiya" (COLREG), "Beynəlxalq dəniz gəmiçiliyinin asanlaşdırılması haqqında Konvensiya" kimi dəniz nəqliyyatı sahəsində 20-dən çox beynəlxalq sənədə qoşulub.

O cümlədən, dəniz nəqliyyatı sahəsi üzrə beynəlxalq konvensiyaların tələblərindən irəli gələn öhdəliklərin icra vəziyyətinin qiymətləndirilməsi məqsədilə Beynəlxalq Dəniz Təşkilatının Audit Ekspert Qrupu 2017-ci ildə Azərbaycanda səfərdə olub və yoxlama aparıb. Yoxlamanın nəticələrinə əsasən, respublikamız 174 dünya dəniz dövləti sırasında ən qabaqcıl Avropa dövlətlərini geridə qoyaraq statistika üzrə ön sırada yer tutub.

Dövlət Dəniz Agentliyi tərəfindən dənizçilərin hazırlanması və onlara diplomların verilməsi sahəsində həyata keçirilən effektiv fəaliyyətin nəticəsidir ki, 2011-ci ildə Avropa Dəniz Təhlükəsizliyi Agentliyi tərəfindən aparılmış yoxlamalar nəticəsində Dövlət Dəniz Agentliyi tərəfindən verilən diplom və sertifikatlar Avropa İttifaqının direktivlərinə uyğun olaraq Avropa İttifaqı tərəfindən tanınmışdır və xüsusi ilə qeyd olunmalıdır ki, Azərbaycan Respublikası Beynəlxalq Dəniz Təşkilatının "Ağ siyahısı"na daxil edilmişdir.

## Bayrağımız altında üzmək hüququnu 75 gəmi qazanmışdır

2018-ci il ərzində Dövlət Dəniz Agentliyi tərəfindən 75 gəmiyə "Azərbaycan Respublikasının Dövlət bayrağı altında üzmək hüququ haqqında şəhadətnamə" verilib.

Həmçinin Azərbaycan Respublikasının Dövlət bayrağı altında üzən 148 gəmidə, xarici dövlətlərin bayrağı altında üzən 59 gəmidə geniş nəzarət yoxlaması həyata keçirilmiş, Azərbaycan Respublikasının dəniz limanlarına 16826 gəminin girişi və 16815 gəminin çıxışı rəsmiləşdirilmiş, xarici dövlətlərin bayrağı altında üzən gəmilərə 1030 dəfə bələdçi xidməti göstərilmişdir.

Uzaq Məsafədən Tanınma və İzləmə Milli Mərkəzinə ötən il ərzində 163 sınaq, 69 qəza və 1587 rəqəmsal seçmə sınaq çağırış siqnalı daxil olub. Eyni zamanda, mərkəz tərəfindən yuxarıda qeyd edilən müddət ərzində gəmilərə 14927 naviqasiya ötürməsi həyata keçirilmiş, 141 gəminin yedəkləmə əməliyyatı yerinə yetirilmiş, 149 gəminin Uzaq Məsafədən Tanınma və İzləmə təsdiqnaməsi qeydiyyata alınmışdır.

## Azərbaycan dəniz nəqliyyatını davamlı olaraq modernləşdirir

Milli Mərkəzdə olduğumuz müddət ərzində şahid olduq ki, burada Gəmilərin Hərəkətinin İdarəetmə Xidmətinin cavabdehlik ərazisində mövcud olan bütün texniki vasitələrlə müşahidənin gücləndirilməsi və gəmilərin hərəkətinin təhlükəsizliyinin təmin edilməsi istiqamətində fasiləsiz xidmət həyata keçirilir.

Bütün bunlar Prezident İlham Əliyevin birbaşa diqqət və qayğısı ilə iqtisadiyyatın digər sahələri ilə yanaşı, dəniz nəqliyyatı sahəsində də həyata keçirdiyi davamlı islahatlarının uğurlarıdır. Bu gün dəniz nəqliyyatını davamlı olaraq modernləşdirən Azərbaycan İlham Əliyevin qlobal miqyaslı təşəbbüsləri ilə regional əməkdaşlıq üçün əvəzolunmaz ölkəyə çevrilir. Ölkəmizin Avrasiyanın əhəmiyyətli nəqliyyat-logistika mərkəzlərindən birinə çevrilməsinə yönəlmiş irimiqyaslı infrastruktur layihələri, ən yeni texnoloji standartlar səviyyəsində Gəmiqayırma Zavodunun istifadəyə verilməsi, 2017-ci ildə Bakı-Tbilisi-Qars dəmiryolunun açılışı, 2018-ci ildə Bakı Beynəlxalq Dəniz Ticarət Limanının istifadəyə verilməsi son illər Azərbaycanda bu istiqamətdə məqsədyönlü strateji planın uğurla reallaşdırılmasının bariz nümunələridir.

Bütün bunların nəticəsidir ki, ölkəmizdə dəniz üzgüçülüyünün təhlükəsizliyinin təmin olunmasında görülən işlər və təşəkkül tapmış mövcud dövlət nəzarət üsulu mütəmadi olaraq Azərbaycana səfər edən müstəqil beynəlxalq ekspertlər, habelə Beynəlxalq Dəniz Təşkilatı və Avropa Dəniz Təhlükəsizliyi Agentliyi tərəfindən müsbət dəyərləndirilir.

**_Yasəmən MUSAYEVA,_**
**_Ağaəli MƏMMƏDOV (foto),_**
**_"Azərbaycan"_**

# 2018: İNKİŞAF və İSLAHATLAR İLİ

SƏNAYE

## Sənayenin ÜDM-dəki xüsusi çəkisinə görə Avropada öndəyik



Son illər sənayenin inkişafı istiqamətində görülən tədbirlər Azərbaycanı dünyada sənayeləşmiş ölkələr sırasına daha da yaxınlaşdırmışdır. Bu gün Azərbaycan sənayenin ÜDM-də xüsusi çəkisinə görə Avropada ön sırada qərarlaşmışdır.

İqtisadi İslahatların Təhlili və Kommunikasiya Mərkəzinin icraçı direktoru Vüsal Qasımlının sözlərinə görə, Azərbaycanda ÜDM-in strukturunda sənayenin üstün artım tempi qlobal trend olaraq dördüncü sənaye inqilabı ilə səsləşir. İndi ölkəmiz sənayenin strukturunda neftdən qeyri-neft bölməsinə uğurlu keçid edir. Təkcə son iki ildə qeyri-neft sənayesində əsas kapitala yönəldilmiş investisiya 70 faizə yaxın artmışdır.

Təsadüfi deyil ki, Azərbaycanın ixracatında qeyri-neft sənaye məhsullarının həcmi artıb. Eyni zamanda ölkəmizin liderliyi ilə Xəzər sahilindən başlayan (Sumqayıt Kimya Sənaye Parkı başda olmaqla) Gürcüstan üzərindən Türkiyə və Aralıq dənizi sahilinə (Petkim) uzanan nəhəng bir kimya kompleksi yaradılıb. Beləliklə, Azərbaycan bir sənaye ölkəsi olaraq regionun təkcə enerji deyil, həm də neft-kimya sənayesi mərkəzi kimi tanınmağa başlayıb.

MİLLİ GƏLİR

## ÜDM istehsalı 1,4 faiz artmışdır

2018-ci ildə Azərbaycanda aparılan sosial-iqtisadi tədbirlər və islahatlar nəticədə inkişafın əsas göstəricisi sayılan ümumi daxili məhsul (ÜDM) istehsalında artımla müşahidə edilmişdir. Belə ki, keçən il ölkə üzrə ÜDM istehsalı 1,4 faiz artmışdır.

Bunu indiki mürəkkəb zamanda müsbət hal kimi qəbul edən Prezident İlham Əliyev hökumətin son iclasındakı giriş nitqində qeyd etmişdir ki, bu göstərici bizim arzularımızı tam əks etdirməsə də, yaxşı nəticədir: "Hesab edirəm ki, bu, yaxşı göstəricidir. Əlbəttə ki, bizim arzularımızı tam əks etdirmir. Ancaq eyni zamanda dünyada gedən proseslərə baxdıqda hesab edirəm ki, yaxşı göstəricidir".

Ötən il qeyri-neft sektorunun inkişafı üçün həyata keçirilən tədbirlər də səmərəsiz qalmamışdır. Məhz bunun sayəsində 2018-ci ildə qeyri-neft sektoru üzrə məhsul istehsalı 1,8 faiz artmışdır. Artım (1,5 faiz), həmçinin sənaye məhsulları istehsalında qeydə alınmışdır. Amma qeyri-neft sənaye məhsullarının istehsalında artım daha yüksək olmuşdur - 9,1 faiz.

MİLLİ VALYUTA



## Məzənnə sabitdir

Ötən il Azərbaycanın sosial-iqtisadi sahədə qazandığı uğurların bir səbəbi də milli valyuta olan manatın kursunun sabit qalmasıdır. Əslində bu iki amil (iqtisadi inkişaf və milli valyutanın kursu) bir-birini tamamlayır. Yəni iqtisadi inkişaf olmayan yerdə sabit milli valyuta, sabit milli valyuta olmayan yerdə iqtisadi inkişaf mümkün deyil.

Azərbaycanın dinamik iqtisadi inkişafı, əhalinin sosial müdafiəsinin gücləndirilməsi üçün həyata keçirilən tədbirlər, eləcə də ölkədə çoxsaylı mühüm layihələrin reallaşması istiqamətində görülən işlərin külli miqdarda vəsait tələb etməsinə, başqa sözlə desək, dövriyyəyə külli miqdarda vəsait buraxılmasına baxmayaraq, bank sisteminin dəqiq işləməsi və səmərəli nəzarət sayəsində manat dünyanın aparıcı valyutalarına nisbətdə nəinki sabit qalmış, hətta öz dəyərini bir qədər də möhkəmləndirmişdir.

Ümumiyyətlə, 2018-ci ildə Azərbaycan manatı dünyanın ən sabit valyutalarından biri olmuşdur. Milli valyutamız ötən il ərzində türk lirəsinə qarşı 29, İran realına qarşı 3, Ukrayna qrinasına qarşı 2, Gürcüstan larisinə qarşı 4, Qazaxıstan təngəsinə qarşı 16, Rusiya rubluna qarşı 18, Çin yuanına qarşı 6, ABŞ dollarına qarşı 1 və avroya qarşı 5 faiz bahalaşmışdır.

QİYMƏTLƏR

## İnflyasiya - 2,3 faiz



Ötən il istehlak məhsullarının və xidmətinin qiymətləri 2017-ci ilə nisbətən 2,3, o cümlədən ərzaq məhsulları, içkilər və tütün məmulatlarının qiymətləri 1,7, qeyri-ərzaq mallarının qiymətləri 2,6, əhaliyə göstərilən ödənişli xidmətlərin qiymətləri isə 2,7 faiz bahalaşmışdır.

2018-ci ilin dekabr ayında isə noyabr ayına nisbətən istehlak məhsullarının və xidmətlərin qiymətləri 0,8, o cümlədən ərzaq məhsulları, içkilər və tütün məmulatlarının qiymətləri 1,7, qeyri-ərzaq mallarının qiymətləri 0,2, əhaliyə göstərilən ödənişli xidmətlərin qiymətləri isə 0,1 faiz artmışdır.

Ötən ilin dekabr ayında noyabr ayı ilə müqayisədə bir çox ərzaq məhsullarının qiymətlərində (uzun düyünün, unun, qoyun və toyuq ətinin, kolbasa məmulatlarının, balıq, süd məhsulları və s.) bahalaşma, bəzilərinin (manna və qarabaşaq yarmasının, vermişel və makaronun, mal ətinin, yumurtanın, limonun, bir çox meyvələrin, şəkərin və s.) qiymətlərində isə ucuzlaşma qeydə alınmışdır. Digər ərzaq məhsullarının qiymətlərində isə ciddi dəyişikliklər baş verməmişdir.

Ay ərzində qeyri-ərzaq mallarından parçaların, geyimin, ayaqqabıların, mebel və məişət əşyalarının, minik avtomobillərinin, planşet tipli kompüterlərin, fotoaparatların, dəftərxana ləvazimatlarının, zərgərlik məmulatlarının qiymətlərində bahalaşma, paltaryuyan maşınların, kondisionerlərin, minik avtomobilləri üçün ehtiyat hissələrinin, mobil telefonların qiymətlərində isə ucuzlaşma müşahidə edilmişdir. Digər qeyri-ərzaq mallarının qiymətlərində ciddi dəyişikliklər olmamışdır.

Dekabr ayında noyabr ayına nisbətən əhaliyə göstərilən ödənişli xidmətlərdən paltarların təmizlənməsi, təmiri və kirayəsi, dəmiryolu və hava nəqliyyatı ilə MDB ölkələrinə sərnişindaşıma xidmətlərinin, respublikadan kənara istirahət turlarının qiymətləri bahalaşmış, MDB ölkələri istisna olmaqla hava nəqliyyatı ilə digər ölkələrə sərnişindaşıma xidmətlərinin qiymətləri isə ucuzlaşmışdır. Digər ödənişli xidmətlərin qiymətləri, demək olar ki, dəyişməmişdir.

QAZLAŞDIRMA

# Dünyada çox az rast gələnən uğur



## Azərbaycanda qazlaşdırma 95 faizdən çoxdur

*Ölkədə mavi yanacaq almayan yaşayış məntəqələrinin qazlaşdırılması, istehlakçıların qaz təchizatının yaxşılaşdırılması, şəbəkənin nəqletmə imkanlarının artırılması istiqamətində ardıcıl iş aparılır. Keçən il ümumi uzunluğu 3 min 193 kilometrə yaxın qaz kəmərləri quraşdırılıb, 526,6 kilometr uzunluğunda qaz kəmərləri əsaslı təmir olunub.*

2018-ci ildə hədəf ölkədə qazlaşdırmanın 95 faizə çatdırılması idi və bu məqsədə nail olundu. Nazirlər Kabinetinin 2018-ci ilin sosial-iqtisadi inkişafının yekunlarına və qarşıda duran vəzifələrə həsr olunan iclasında bu yüksək göstərici kimi qeyd edildi: "Dünyada nadir ölkələr tapılar ki, bu dərəcədə qazlaşdırma aparılsın".

"Azərbaycan Respublikası regionlarının 2014-2018-ci illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqramı"na uyğun olaraq ölkədə mavi yanacaq almayan yaşayış məntəqələrinin qazlaşdırılması sahəsində təxirəsalınmaz işlər həyata keçirilib. Yeni qaz kəmərlərinin çəkilməsi ilə yanaşı, əhali istehlakçılarının mənzillərində istismar edilən istismar müddəti başa çatmış sayğaclar təzəsi ilə əvəz olunub və istismara yararsız vəziyyətə düşmüş qaz avadanlıqları dəyişdirilib. Şəbəkənin təhlükəsiz və normal rejimdə istismarının təmin olunması üçün xətlərdə əsaslı təmir işləri aparılıb.

İndi qaz xətləri ən ucqar dağ kəndlərinə də çatıb. Hətta sovet dönəminin ən inkişaflı illərində qazdan istifadə etmək imkanı olmayan yaşayış məntəqələrindəki evlərdə indi mavi alov şölələnir.

Həmin yaşayış məntəqələrindən biri dəniz səviyyəsindən 1500 metr hündürlükdə yerləşən, Babadağ və Niyaldağ silsilələri ilə əhatə olunmuş Lahıcdır. Keçən ilin avqust ayında qəsəbəyə qazın verilməsində Prezident İlham Əliyevin və Birinci vitse-prezident Mehriban xanım Əliyevanın iştirak etməsi sakinlərin qəlbini fərəhlə doldurub. Dövlət başçısının ucqar kənd və qəsəbələrin qazlaşdırılması barədə tapşırığına uyğun olaraq, İsmayıllı rayonunun adıçəkilən qəsəbəsində və bu xətt boyunca yerləşən kəndlərdə qazlaşdırma həyata keçirilib. Bu, son illərdə ölkədə vüsət alan qazlaşdırma sahəsində əldə olunmuş mühüm nailiyyətlərdən biridir.

Hazırda çətin relyefə malik ərazilərin qazlaşdırılması "Azəriqaz" İstehsalat Birliyinin qarşısında duran əsas hədəflərdəndir. Bu sırada Lahıcın mavi yanacaq alması mühüm yer tutur. Qəsəbəyə qaz 19 kilometr kənardakı qazpaylayıcı məntəqədən çəkilib. Nazirlər Kabinetinin sözügedən iclasında Lahıca rahat yolun salınması, qəsəbədə orta məktəb binasının tikilməsi ilə yanaşı, qaz xətlərinin çəkilməsi də mühüm hadisə kimi qeyd olunub. Bununla bərabər, keçən il Qaraqaya, Gəndob, Namazgah kəndləri də qazlaşdırılıb. Təkcə Lahıcın daxilində ümumi uzunluğu 39 min metr olan borular çəkilib.

Qazlaşdırılan ucqar dağ kəndləri yüzlərlədir. Məlumdur ki, dağlıq ərazilərdə relyefin xüsusiyyətlərinə, iqlim şəraitinə görə qaz çəkilişi çətinliklə aparılır. Bu, həm texniki cəhətdən çətin işdir, həm də böyük maliyyə vəsaiti tələb edir. Bununla belə, qarşıya qoyulan vəzifələr müvəffəqiyyətlə yerinə yetirilir. Xətlər dağlardan, qayalıqlardan keçdiyi üçün hətta bəzən borular iş gedən ərazilərə əllə daşınır.

Uzun müddət təbii qaz almayan yaşayış məntəqələrinin, həmçinin indiyədək qazlaşdırılmayan kənd və qəsəbələrin mavi yanacaqla təmin edilməsi istiqamətində görülən məqsədyönlü tədbirlər davam edir. Təkcə keçən il Azərbaycanın müxtəlif rayonlarında 150 yaşayış məntəqəsi qazla təmin olunub. Bunlar Ağstafa, Bərdə, Zərdab, Tovuz, Quba, Şamaxı, Göyçay, Gədəbəy, Goranboy, Oğuz, Lerik, Yardımlı və bir sıra digər rayonların kənd və qəsəbələridir. Bu yaşayış məntəqələri arasında elələri var ki, ilk dəfə qazdan istifadə etmək imkanı qazanıblar. Neftçala rayonunun Cəngan və Ərəbqardaşbəyli, Qax rayonunun Meşəbaş kəndləri də bu sıradadır. Keçən il, eləcə də Yevlax rayonunun Rüstəmli və Qaraməmmədli kəndlərinə təbii qaz verilib. Rüstəmli və Qaraməmmədli iri kəndlərdir, odur ki, burada ümumilikdə 537 fərdi ev qazlaşdırılıb. Bu sevinci Saatlı rayonunun Mərzili kəndinin sakinləri də yaşayıb. Belə ki, burada 223 fərdi ev qazlaşdırılıb.

Ağdam, Ağcabədi və Sabirabad rayonlarında məcburi köçkünlərin məskunlaşdığı 4 qəsəbə də təbii qazla təmin edilib.

Nazirlər Kabinetinin 2018-ci ilin sosial-iqtisadi inkişafının yekunlarına və qarşıda duran vəzifələrə həsr olunan iclasında Prezident İlham Əliyev qazlaşdırma prosesinin davam etdiriləcəyini bildirib. Dövlət başçısı vurğulayıb ki, bir sıra kəndlərdə hələ qaz yoxdur, ona görə kəndlərin qazlaşdırılması yenə də gündəlikdə duran məsələdir.

*Flora SADIQLI, "Azərbaycan"*

MÜQAYİSƏ

## Ermənistanla fərqimiz görünməmiş həddə çatıb

Məlum olduğu kimi, Prezident İlham Əliyev hökumətin son iclasındakı nitqində Ermənistanla bağlı çox ciddi fikirlər söyləmiş, dünya ictimaiyyətinin diqqətini çəkən bəyanatlar səsləndirmişdir.

"Mən dəfələrlə bunu bildirmişəm, bir daha demək istəyirəm ki, Ermənistanı bu ağır böhranlı vəziyyətdən çıxarmaq üçün bir yol var - o da Azərbaycan ilə münasibəti normallaşdırmaqdır. Biz buna hazırıq. Ancaq əlbəttə ki, buna nail olmaq üçün bir şərt var - Ermənistan silahlı qüvvələri işğal edilmiş torpaqlardan çıxarılmalıdır", - deyən dövlət başçısı vurğulamışdır ki, məhz bu işğalçı siyasətinə görə Ermənistan Azərbaycan tərəfindən bütün regional layihələrdən təcrid edilmiş və nəticədə onun iqtisadiyyatı, demək olar, çökmüşdür.

Ermənistanın çökmüş iqtisadiyyatı ölkəmizlə müqayisədə daha aydın görünür. Məsələn, bu gün Azərbaycan iqtisadiyyatı Ermənistanın iqtisadiyyatından 4 dəfə böyükdür, valyuta ehtiyatlarımız isə Ermənistanın valyuta ehtiyatlarını 20 dəfə üstələyir. Bundan əlavə, Ermənistanın 4 sərhədindən 2-si tam bağlı, digər 2-si isə çox məhdud imkanlara malikdir. İşğalçı ölkə bütün neft-qaz, nəqliyyat-logistika, İKT layihələrindən kənarda qalmaqla öz siyasətinin girovuna çevrilib.

BÖLGƏLƏR




## Bu il növbəti regional inkişaf proqramı qəbul olunacaq

Bunu Prezident İlham Əliyev Nazirlər Kabinetinin yanvarın 11-də 2018-ci ilin sosial-iqtisadi inkişafının yekunlarına və qarşıda duran vəzifələrə həsr olunan iclasında demişdir.

Məlum olduğu kimi, İlham Əliyevin prezidentliyinin ilk dövrünə təsadüf edən regionların sosial-iqtisadi inkişafı birinci Dövlət Proqramından sonra daha iki analoji sənəd qəbul olunmuşdur. Hər üç proqramda qarşıya qoyulan vəzifələr ötən 15 il ərzində uğurla icra edilmişdir. Cari ildə isə dördüncü regional inkişaf proqramının qəbulu nəzərdə tutulur.

"Keçən il regionların üçüncü sosial-iqtisadi inkişaf Dövlət Proqramı başa çatdı. Bu beşillik proqram artıqlaması ilə yerinə yetirildi. Bu proqram bizə imkan verdi ki, bölgələrdə infrastruktur layihələrinin icrası daha sürətlə getsin, yüz minlərlə yeni iş yerləri, yeni sənaye müəssisələri yaradılsın, kənd təsərrüfatı daha sürətlə inkişaf etsin. Bir sözlə, regional inkişaf proqramının çox böyük əhəmiyyəti və gözəl nəticələri var", - deyən dövlət başçısı artıq dördüncü proqramın əsas hissələrinin hazır olduğunu diqqətə çatdırmışdır.

SƏRMAYƏ QOYULUŞU

## 17,2 milyard manat investisiya

Bütün dünyada, o cümlədən bizə yaxın və uzaq regionlarda baş verən mürəkkəb siyasi-iqtisadi hadisələrə baxmayaraq, Azərbaycan ötən il də qarşıya qoyulan əsas məqsədlərinə çatmışdır. 2018-ci ildə ilk növbədə strateji yol xəritələrinin icrası təmin olunmuş, o cümlədən kiçik və orta sahibkarlıq daha da inkişaf etdirilmiş, yeni infrastruktur layihələri reallaşdırılmışdır.

Bütün bu işlər üçün isə təbii ki, ilk növbədə sərmayə qoyuluşu tələb olunur. Keçən il Azərbaycan iqtisadiyyatına 17,2 milyard manat sərmayə yatırılmışdır. Bu sərmayənin 11 milyard manatından çoxu qeyri-neft sektoruna yönəldilmişdir. Prezident İlham Əliyev Nazirlər Kabinetinin son iclasında bunu çox yüksək dəyərləndirmişdir: "Bu onu göstərir ki, Azərbaycan sərmayə qoyuluşu üçün çox cəlbedici ölkədir. Dünya Bankının son hesabatında bizim 25-ci yerə qalxmağımız hesab edirəm ki, sərmayə qoymaq istəyənləri daha da həvəsləndirəcək və ölkəmizə daha çox sərmayə qoyulacaq".



Keçən il Azərbaycan iqtisadiyyatı, həmçinin qeyri-neft sektorunda özəl sektorun iştirakı ilə ticari bölmənin hesabına 1 faiz artmışdır. Ümumiyyətlə, son 15 ildə ölkə iqtisadiyyatı 3,2 dəfədən çox inkişaf etmişdir. Üstəlik, bu inkişaf neft hasilatının ilbəil azalması və neftin qiymətinin kəskin volatilliyi fonunda baş vermişdir. Bu isə özlüyündə çox müsbət haldır, başqa sözlə desək, inkişafın keyfiyyətinin yüksəlməsi deməkdir.




# Xalqımıza qarşı məkrli siyasətin növbəti təzahürü

Qanlı Yanvar hadisələrindən 29 il ötür. Aparılan təhlil və araşdırmalar bir daha təsdiq edir ki, bütün proseslərin başında M.Qorbaçov dayanırdı. SSRİ müdafiə naziri, marşal Dmitri Yazov isə Bakıya yeridilən qoşunun törətdiyi qırğınların, vəhşiliklərin birbaşa icraçısı idi. Törətdiyi cinayətə görə layiqli cəzanı almasa da, hər halda ona ölkədən çıxmaq qadağası qoyulmuşdu. Lakin o, həqiqəti boynuna almaqdan imtina edir. Bunu onun "Lider" TV-nin Moskva bürosunun rəhbəri Anar Həsənovla müsahibəsi də təsdiq edir.

"SSRİ-nin dağılmasında Qarabağ münaqişəsi böyük rol oynadı. Siz o hadisələrin mərkəzində idiniz. Günahkar kim idi" sualına D.Yazov belə cavab verib: "Qorbaçovun yenidənqurma dövrü zamanı Ermənistanda zəlzələ baş verdi. Həmin vaxt artıq Qarabağda münaqişə də başlayırdı. Mən onda erməni mədəniyyət işçilərinin iclasında iştirak edirdim. Yazıçı Silva Kaputikyan Qarabağ haqqında danışmağa başlayanda Qorbaçov xüsusi tərzdə soruşdu: "Siz Artsax haqqında danışırsınız?" Ermənilər Qarabağı "Artsax" adlandırır. Bu, onlarına xoşuna gəldi. Onlar gülümsəməyə başladılar və Qorbaçova dedilər: "Siz tarixi bilirsiniz".

D.Yazov əlavə edir: "Əslində Qorbaçov tarixi bilmirdi. Ona, sadəcə, kimsə bu haqda demişdi və o, ermənilərin xoşuna gəlmək üçün belə etdi. Bu görüşdə ciddi suallara toxunulmuşdu. Ermənilər Qarabağı Azərbaycandan ayırmağı tələb edirdilər. İclasda MK Siyasi Büronun üzvləri Nikolay Rıjkov və Slyunkov da iştirak edirdi. Biz bir-birimizin üzünə baxdıq. Anladıq ki, Qorbaçov danışıq aparmır, odun üzərinə yağ tökür. Müdafiə naziri kimi 172 min azərbaycanlının öz torpaqlarından qovulduğu artıq mənə məlum idi. Sumqayıtda xüsusilə vəziyyət gərgin idi. Bu, Siyasi Büroda şok effekti yaratdı. Qorbaçov məni, Kryuçkovu və Bakatini yanına dəvət etdi. Dedi ki, Bakıda vəziyyət pisdir. Bakıya ezam olunmuş Girenko və Primakovla telefon vasitəsilə danışırdı. Onlar Bakıda fövqəladə vəziyyət elan edilməsinin vacibliyini deyirdilər...

Bakıda Girenko, Primakov, Mütəllibov və Azərbaycan MK-nın başqa üzvləri toplaşdı. Mən 3 gün ərzində fövqəladə vəziyyət elan edəcəyimizi bildirdim. Moskvada Çkalov aeroportundan uçarkən artıq hansı rayonlara desant alaylarının yerləşdirilməsi haqda əmr verdim. Biz radio vasitəsilə qoşunların şəhərə girişini elan etdik. Televiziya partladılmışdı. Bunu kimin etdiyini bilmirəm. Radio vasitəsilə insanları küçələrə çıxmamağa çağırdıq. Qoşunlar şəhərə sakinləri öldürmək məqsədilə girməmişdi. Məqsəd vəziyyəti sabitləşdirmək, ermənilərlə azərbaycanlılar arasında münaqişəni həll etmək idi".

Yazova sual veriləndə ki, rəsmi məlumatlara görə, Bakıda 136 insan həlak oldu. O, isə yenə cavab verir ki, biz heç bir insanı öldürmədik. Bizim əsgərlərimizin kimi isə vurmağı haqda mənə məlumat verilməmişdi. Təkrar soruşulanda ki, bəs tankın altında qalan təcili yardım maşını haqqında nə deyərsiniz? Yenə də cavab verir ki, mən tankın altında qalan təcili yardım maşını haqda heç nə bilmirəm. Bakıda tanklar yox idi. Sadəcə piyada döyüş maşınları var idı.

Soruşulur: "Siz özünüzü 20 Yanvar hadisələrində günahkar hesab edirsinizmi?" Cavab verir: "Mən özümü günahkar hesab edirəm? Mən başqasının əmrini yerinə yetirirdim. İndi o əmrləri verən insan hər şeydən imtina edir. Mən ölkədən çıxa bilmərəm. Mən hara getsəm, həbs olunacağam. Çünki fövqəladə vəziyyəti mən elan etmişdim, ordunu şəhərə mən daxil etmişdim. İnsanların güllələnməsində məni günahkar hesab edirlər. Kimi ittiham edirlər? Mən insanları güllələməyi əmr etmirdim. Həm Bakıda, həm Vilnüsdə. Mən gəldim, çünki məni göndərmişdilər. Təkcə məni yox, daxili işlər nazirini, dövlət təhlükəsizlik katibini də göndərmişdilər. Ölkədə daxili vəziyyətə görə mən cavab verməli idim? Əlbəttə ki, ilk növbədə daxili işlər naziri cavab verməli idi. Mənim vəzifəm ölkənin sərhədlərini müdafiə etmək və düşmənlə vuruşmaq idi. Məni aldatdılar.

Xatırlayıram, Heydər Əliyev öz məqalələrinin birində yazırdı ki, Qorbaçovu və o hadisələrin icraçısı Yazovu bağışlamayacam. Lakin mən öz vəzifəmi yerinə yetirdiyimi hesab edirəm. Vətəndaş müharibələri zamanı həmişə mülki insanlar məhv olur. Qoşunları mən daxil etdim, lakin bu mənim "güllələyin" əmrini verməyim demək deyil".

Cavablarından görünür ki, Yazov öz cinayətini etiraf etməkdən imtina edir. Halbuki bir neçə ölkə Dmitri Yazovu bu qırğına görə cinayətkar elan etmişdi. D.Yazov bilməmiş olmazdı ki, SSRİ Ali Sovetinin Rəyasət Heyəti 15 yanvar 1990-cı il tarixdə Dağlıq Qarabağ və ətraf rayonlarda fövqəladə vəziyyət barədə verdiyi fərmanın 1-ci maddəsində Bakıda fövqəladə vəziyyət nəzərdə tutulmurdu.

SSRİ Ali Soveti Rəyasət Heyətinin 19 yanvar 1990-cı il tarixli fərmanının təsiri Bakı şəhərinə 20 yanvarda, səhər saat 7-də elan edilərək şamil edilmişdir.

Fövqəladə vəziyyətin hüquqi rejimi haqqında qanun isə 3 aprel 1990-cı ildə - qırğından 2 ay 16 gün sonra qəbul edilmişdir. Beləliklə, qanunsuz fövqəladə vəziyyət elan edilmişdir. Əsl həqiqət bax budur.

Belə bir qənaətə gəlmək olar ki, böyük itkilərlə, günahsız insanların qətli ilə nəticələnən 20 Yanvar faciəsi Mixail Qorbaçov başda olmaqla cinayətkar imperiya rəhbərliyinin Azərbaycana qarşı xəyanətkar siyasətinin təzahürü olmuşdu. Digər tərəfdən isə, bu faciə öz azadlığına, müstəqilliyinə can atan Azərbaycan xalqının mübarizliyinin, əyilməzliyinin və məğrurluğunun göstəricisi oldu.

Azərbaycan dövlət müstəqilliyini əldə etdikdən sonrakı ilk illərdə başları hakimiyyət uğrunda mübarizəyə qarışmış respublika rəhbərləri 20 Yanvar qırğınına siyasi-hüquqi qiymət verilməsi və cinayətkarların müəyyən edilməsi istiqamətində məqsədyönlü iş aparmadılar. Ali Sovetin deputat-istintaq komissiyasının yaradılmasına, 18 yanvar 1992-ci il tarixli iclasında komissiyanın işinin yekunlaşdırılmasının müzakirə edilməsinə baxmayaraq, faciəyə hüquqi-siyasi qiymət verilməmişdir. Yalnız ümummilli lider Heydər Əliyev hakimiyyətə qayıtdıqdan sonra Milli Məclisin 29 mart 1994-cü il tarixli iclasında 20 Yanvar faciəsi müzakirə edildi və ona siyasi-hüquqi qiymət verildi, faciənin günahkarlarının adları açıq şəkildə bəyan edildi.

Cinayəti ört-basdır etmək üçün 100 cildlik istintaq materialının 69 cildi Bakıdan Moskvaya, keçmiş SSRİ Prokurorluğuna aparılıb və bir daha geri qaytarılmayıb. Azərbaycan xalqının məruz qaldığı bu təcavüz indiyədək bəşəriyyət əleyhinə cinayət kimi beynəlxalq müstəvidə layiq olduğu qiyməti almayıb. Bu hadisələrə kədər, yaxud mübarizlik salnaməsi kimi pafossuz münasibətlə bərabər, düşünülmüş, hadisələrin mahiyyətini olduğu kimi, beynəlxalq təşkilatların diqqətinə çatdırmaq barədə düşünməli və 20 Yanvar faciəsinə beynəlxalq hüquqi qiymətin verilməsinə çalışmalıyıq.

Sual olunur, faciənin qarşısını almaq olardımı? Bəli, o vaxtlar ölkə rəhbərliyində Heydər Əliyev olsaydı, bu faciənin qarşısını almaq olardı. Xalq-iqtidar birliyi olsaydı, hakimiyyət uğrunda mübarizə, qarşıdurma olmasaydı və məqsədəuyğun milli siyasət yürüdülsəydi, bu faciənin qarşısını almaq mümkün olardı.

Şükürlər olsun ki, ulu öndərin yenidən hakimiyyətə gəlməsi xalqı fəlakətdən, yox olmaq təhlükəsindən qurtardı. Şəhidlərimizin adları əbədiləşdirildi, abidələri ucaldıldı və ailələrinə dövlət qayğısı göstərildi. Bu siyasət bu gün cənab Prezident İlham Əliyev tərəfindən davam etdirilir. 327 nəfər 20 Yanvar əlili Prezident təqaüdü alır, 11994 nəfər Qarabağ əlili, 49692 müharibə veteranı və şəhid ailəsi dövlət qayğısı ilə əhatə olunmuşdur. Hər il dövlət səviyyəsində şəhidlərin anım tədbirləri keçirilir.

1990-cı ilin yanvar qırğını nə qədər faciəli olsa da, Azərbaycan xalqının iradəsini, milli azadlıq uğrunda mübarizə əzmini qıra bilmədi. Həmin müdhiş gecədə həlak olan vətən oğulları Azərbaycanın tarixinə parlaq səhifə yazdılar, xalqın milli azadlığı, müstəqilliyi üçün yol açdılar. Bakının ən yüksək nöqtələrindən birində hər bir azərbaycanlı üçün müqəddəs and yerinə çevrilmiş bir ünvan var. Bu, 20 Yanvar qurbanlarının və Ermənistanın hərbi təcavüzünə qarşı döyüşlərdə həlak olanların dəfn edildiyi Şəhidlər xiyabanıdır. Hər il yanvarın 20-də yüz minlərlə insan Vətənin azadlığı uğrunda canlarından keçmiş Azərbaycan oğul və qızlarının əziz xatirəsini ehtiramla yad etmək üçün buranı ziyarət edir. Və məzarları ziyarət edərkən B.Vahabzadənin:

*İnsan insan olur öz hünəriylə,*
*Millət millət olur xeyri, şəriylə,*
*Torpağın bağrına cəsədləriylə*
*Azadlıq tumunu əkdi şəhidlər -*

misralarını ürəklərindən keçirirlər.

Nəsillər dəyişəcək, lakin Vətən oğullarının xatirəsi ürəklərdə əbədi yaşayacaqdır. Torpaqlarımız işğaldan azad olunacaq və ərazi bütövlüyümüz bərpa ediləcəkdir. Bizlərin hər biri bir gün Şəhidlər xiyabanını ziyarət edib deyəcəyik ki, Azərbaycanın ərazi bütövlüyünü təmin etmişik, rahat yatın, Allah sizlərə rəhmət eləsin. İnanırıq ki, bu gün uzaqda deyil. Bu inamı bizlərə ölkə rəhbəri cənab İlham Əliyevin yeritdiyi uğurlu siyasət və xalqımızın qələbə əzmi verir.

***Şikar QASIMOV,***
***Azərbaycan Texniki Universitetinin İctimai fənlər kafedrasının müdiri, tarix elmləri doktoru, professor***

***(Əvvəli qəzetin 15, 16 yanvar tarixli nömrələrində)***




# Birliyin, yenilməzliyin nümunəsi

Qədim şəhərin yolları, küçələri döyüş meydanlarına dönmüşdü. Ancaq müharibə belə olmur. Çünki silah bir tərəfin əlindəydi. Avtomatlarla qarşılarına çıxan, gözlərinə görünən hər kəsi atəşə tuturdular. Ləngər vura-vura dolaşan, ətrafa ölüm saçan ağır hərbi texnika da onların idi... Sövet hökuməti yetmiş il "xilaskar ordu" deyib öyündüyü ilə öldürürdü soydaşlarımızı. Ona görə ki, onlar xalqının azadlığını tələb edirdilər.
1990-cı ilin o soyuq yanvar gecəsi sovet ordu hissələri Azərbaycan xalqının müstəqillik arzusunu, azadlıq istəyini atəşə tutsa da, öldürə bilmədi. Şəhidlərini başının üstünə qaldıran xalq birliyini, yenilməzliyini nümayiş etdirdi.

## Vətəndaşlıq borcu

Müasir dünyamızda tarix yalnız kağız üzərində yazılmır. Sovet ordu hissələrinin 1990-cı ilin yanvarında Azərbaycan xalqına qarşı törətdiyi o qətliam da videokameranın yaddaşına köçürüldü. 20 Yanvar faciəsini lent yazılarında əbədiləşdirənlər də o günlərdə ölümlərini gözə almışdılar. Çünki xalqın birlik nümayiş etdirdiyi o günlərdə can qorxusu, ölüm xofu insanlara yaxın duşə bilmirdi. Düşmənin qarşısına sinəsi ilə sipər çəkmək, yaralılara yardım göstərmək, bir-birinə arxa durmaq kimi, həmin müdhiş anları lentə almaq da vətənə xidmət, vətəndaşlıq borcu hesab olunurdu.

Azərbaycan tarixinə hüzn və qürur salnaməsi kimi yazılan o müdhiş günlər zaman keçdikcə yeni-yeni əsərlərin mövzusuna çevrildi. 20 Yanvar faciəsindən bəhs edən sənədli filmlər, heykəltəraşlıq nümunələri, rəsm və musiqi əsərləri yaradıldı.

O günlərdə kameranın yaddaşına köçürülənlər sənədli ekran əsərlərində geniş istifadə olunmağa başlandı. Azərbaycan kinematoqrafiyasında 20 Yanvar hadisələrinə "Azadlığa gedən yollar", "20 Yanvar", "Şəhidlər və qazilər", "Qəsd", "Boz qurdun harayı", "Qanlı Bakı", "Cənubda şimal küləyi", "Bakıda insan ovu", "Qanlı Yanvar", "Matəm" sənədli filmləri ithaf edildi. Həmin lentlər əsasında çəkilən filmlərdə 1990-cı ilin yanvarında xalqımızın başına gətirilən müsibətlər dolğun və təsirli şəkildə canlandırıldı.

## Hüzn və qürur salnaməsi ekran əsərlərində

"Azadlığa gedən yollar" tammetrajlı sənədli filmi 1990-cı ildə rejissorlar Xamis Muradov, Tofiq Məmmədov, Ramiz Əliyev və Rövşən Almuradlı tərəfindən "Salnamə" sənədli filmlər studiyasında çəkildi. Film Cəfər Cabbarlının "1905-ci ildə" pyesindəki bu səhnə ilə başlayır: Qubernator çarın portreti asılmış otaqda azərbaycanlılarla ermənilər arasında qırğın planları hazırlayır. Daha sonra Ermənistanda və Azərbaycanda soydaşlarımızın başına gətirilən faciələrdən bəhs olunur. Filmin əsas süjet xəttini 1990-cı il yanvarın 20-də Bakıda baş vermiş qırğınlar və sonrakı hadisələr təşkil edir.

Qara Yanvar hadisələrindən bəhs edən daha bir ekran işi rejissor Cahangir Zeynallının "20 Yanvar" sənədli filmidir. 1990-cı ilin oktyabrında ərsəyə gələn film bir sıra xarici ölkələrdə də nümayiş olundu. Filmdə elə həmin ilin 20 yanvarında Azərbaycanda baş verən qanlı hadisələrdən söhbət açılır.

1990-cı ildə ekranlaşdırılan başqa bir qısametrajlı sənədli film "Matəm" adlandırıldı. "Rakurs" Sənədli Filmlər Studiyasının istehsal etdiyi bu filmdə 20 Yanvar şəhidlərimizin qırxı ilə əlaqədar "Şəhidlər xiyabanı"nda keçirilən ümumxalq matəmi əksini tapdı. Filmin rejissoru və ssenari müəllifi Teymur Bəkirzadədir.

"Şəhidlər və qazilər" qısametrajlı filmi də 1990-cı ildə çəkildi. "Salnamə" sənədli filmlər studiyasının istehsalı olan filmdə Bakıda 1990-cı ilin 20 yanvarında sovet ordusu əsgərləri tərəfindən güllləbaran edilmiş şəhər sakinlərinin şəhid olmaları və əlil qalmaları təsvir edilir. Filmin rejissoru Xamis Muradov, Tofiq Məmmədov və Ramiz Əliyevdir. "Şəhidlər və qazilər" Xamis Muradovun ssenarisi əsasında ekranlaşdırıldı.

## 20 Yanvara gedən yol

"Qəsd" qısametrajlı sənədli filmi də 1990-cı ildə təqdim olundu. Rauf Nağıyevin rejissoru olduğu ekran əsərində çar imperiyasının I Pyotr zamanından sovet imperiyasının Qorbaçov dövrünədək ermənilərin məkri ilə Azərbaycana, azərbaycanlılara qarşı yönəldilmiş qəsdlər - XIX əsrin ikinci onilliyində imzalanmış bədnam Türkmənçay və Gülüstan müqavilələrinə əsasən ölkəmizin iki yerə parçalanması, 1905-ci ildə və 1918-ci illərdə rus imperiyasına arxalanan erməni daşnaqlarının qanlı cinayətləri, 1920-ci ildə Leninin sərəncamı ilə XI Qırmızı Ordunun işğalçılıq basqını və Azərbaycan Xalq Cümhuriyyətinin süqutu, 1930-cu illərin Stalin repressiyası, 1990-cı ildə Qorbaçovun sərəncamı ilə törədilən 20 Yanvar faciəsi, Rusiya ordusuna arxalanan erməni işğalları, vəhşilikləri təkzibolunmaz faklarla diqqətə çatdırıldı. Filmin ssenari müəllifləri Sara Nəzirova və Rauf Nağıyevdir.

"Boz qurdun harayı" qısametrajlı sənədli filmi "Salnamə" sənədli filmlər studiyasında rejissorlar Tofiq Məmmədov və Ramiz Əliyev tərəfindən çəkildi. 1991-ci ildə təqdim edilən film Azərbaycanda 1990-cı il yanvarın 20-də həlak olmuş şəhidlərin ildönümünə həsr olundu.

"Bakıda insan ovu" qısametrajlı sənədli filmi Vaqif Azəryarın rejissorluğu ilə 1991-ci ildə ekranlaşdırıldı. "Yaddaş" Sənədli Filmlər Studiyasında istehsal edilən filmdə 1990-cı ilin 20 yanvarında Bakıda baş vermiş faciəli hadisələrdən söz açıldı. Filmin ssenari müəllifi Vaqif Azəryar və Qulu Kəngərlidir.

"Azərbaycantelefilm"in istehsalı olan "Qanlı Bakı" sənədli televiziya filmi də 1990-cı ildə Bakı şəhərində baş vermiş qanlı yanvar hadisələrindən bəhs edir. Filmin rejissoru Aydın Dadaşov, ssenari müəllifi Sadıq Elcanlıdır. Film 1994-cü ildə ekranlaşdırıldı.

Cəfər Cabbarlı adına "Azərbaycanfilm" kinostudiyasında 2001-ci ildə çəkilmiş "Şəhidlik zirvəsi" qısametrajlı sənədli filmi də Qara Yanvar şəhidlərinə həsr olundu. Rejissorları Xamis Muradov və Tofiq Məmmədov olan ekran əsərində Azərbaycan ərazilərinin Rusiya ilə İran arasında bölüşdürülməsi - 1828-ci ildən müasir dövrədək Azərbaycanda baş vermiş ictimai-siyasi hadisələr əksini tapdı. Film Xamis Muradov, Eldar Quliyev və Oqtay Mirqasımovun ssenarisi əsasında çəkildi.

1990-cı ilin yanvarında yalnız ölkəmizin paytaxtında faciələr törədilmədi. Sovet ordusunun hissələri Azərbaycanın bir sıra yerlərində, eləcə də sərhədyanı rayonlarda güc nümayiş etdirdilər. 2002-ci ildə ekranlaşdırılan "Cənubda şimal küləyi" qısametrajlı sənədli filmi də 1990-cı ilin yanvarında Azərbaycanın cənub rayonlarında, xüsusi ilə Biləsuvarda törədilən qırğınlardan bəhs edir. Çəkilişləri Biləsuvar rayonunda aparılan filmdə yaradıcı heyət 20 Yanvar hadisələrində geniş tamaşaçı kütləsinə məlum olmayan faktları əks etdirməyə çalışmışdı. Ekran əsərində arxiv materiallardan, sənədli-xronikal video materiallardan istifadə edilmişdi. Mədəniyyət Nazirliyinin dəstəyi ilə "Salnamə" kinostudiyasında çəkilən filmin rejissoru Mahmud Məmmədov, ssenari müəllifi İntiqam Hacılıdır.



Azərbaycan xalqının müstəqillik uğrunda mübarizəsini əks etdirən ekran əsərləri heç vaxt öz əhəmiyyətini itirməyəcək. Yeni nəsillər həmin filmlərdən xalqımızın üzləşdiyi haqsızlıqlar, müsibətlər barədə geniş məlumat alacaqlar. 20 Yanvar faciəsi zamanı çəkilən kadrlar isə bundan sonra da neçə-neçə sənədli və bədii filmlər üçün zəngin material olacaq. Həmin kadrları dünyanın ən istedadlı rejissorları belə çəkə bilməzlər... Çünki o səhnələr Azərbaycan tarixinin lent yazılarında əbədiləşmiş real görüntülərdir. Azərbaycan xalqının azadlıq yolu ən amansız döyüş filmlərini xatırladan o günlərdən keçdi...

***Zöhrə FƏRƏCOVA,***
***"Azərbaycan"***

# Çox güclü xəzri küləyi əsəcək, havanın temperaturu 10 dərəcə enəcək

Sinoptiklər ölkə ərazisində havanın kəskin dəyişəcəyi və gözlənilən xüsusi təhlükəli hidrometeoroloji hadisə ilə bağlı xəbərdarlıq ediblər.

Ekologiya və Təbii Sərvətlər Nazirliyinin Milli Hidrometeorologiya Departamentindən AZƏRTAC-a verilən məlumata görə, Bakıda və Abşeron yarımadasında yanvarın 17-də hava şəraitinin kəskin dəyişəcəyi, şimal-qərb küləyinin əsəcəyi, sürətinin saniyədə 28-33 metr olacağı, yarımadanın bəzi yerlərində arabir 35-38 metrədək şiddətlənəcəyi gözlənilir. Havanın temperaturunun ötən günlərlə müqayisədə 10° enəcəyi və 2°-yə yaxın isti olacağı proqnozlaşdırılır. Havanın yağıntılı olacağı, yağıntının sulu qara keçəcəyi ehtimalı var.

Sinoptiklərin tibbi-meteoroloji xəbərdarlığına görə, yanvarın 17-18-də Abşeron yarımadasında çox güclü xəzri küləyinin əsəcəyi və havanın temperaturunun ötən günlə müqayisədə 10° enəcəyi gözlənilir. Havanın belə kəskin dəyişməsi əksər əhali üçün çox əlverişsizdir.

Azərbaycanın rayonlarında yanvarın 17-dən etibarən havanın dəyişəcəyi, kəskin hava şəraitinin 18-i gündüzədək davam edəcəyi proqnozlaşdırılır. Havanın arabir yağıntılı olacağı, sulu qar, qar yağacağı, bəzi yerlərdə intensiv və güclü olacağı gözlənilir. Şimal-qərb küləyinin əsəcəyi, bəzi rayonlarda arabir saniyədə 23-28 metrədək güclənəcəyi, Kür çökəkliyi rayonlarında arabir 33-38 metrədək şiddətlənəcəyi ehtimal edilir. Havanın temperaturu ötən günlərlə müqayisədə 10° enəcək. Minimal temperatur dağlıq rayonlarda 5-10°, yüksək dağlıq ərazilərdə 12-17° şaxta, Aran rayonlarında 2° şaxtadan 3°-dək isti olacaq.

# Hava şəraitinin ifrat təhlükəli surətdə dəyişəcəyinə görə "Azərenerji" xüsusi rejimdə işləyəcək



Hava şəraitinin ifrat təhlükəli surətdə dəyişəcəyi ilə bağlı xüsusi xəbərdarlığa uyğun olaraq "Azərenerji" ASC-nin mərkəzi aparatında və bütün müəssisələrində gücləndirilmiş xüsusi iş rejimi təşkil edilməsi üçün səhmdar cəmiyyətin rəhbərliyi tərəfindən müvafiq əmr verilib.

Əmrə əsasən, "Azərenerji" ASC-nin struktur tərkibinə aid olan idarə və müəssisə rəhbərlərinə tapşırılıb ki, 17-18 yanvar tarixlərində enerji sistemdə qəza hallarının baş verməməsi və yarana biləcək hər hansı qəza halının operativ aradan qaldırılması məqsədi ilə elektrik şəbəkələrində, stansiyalarında və sistem əhəmiyyətli yarımstansiyalarda bütün işçilər iş yerlərində olsun, rəhbər vəzifəli şəxslər iş rejiminə nəzarəti gücləndirsinlər.Enerji sistemdə qəflətən açılmadan itirilə biləcək gücü əvəz etmək üçün fırlanan ehtiyat güc saxlanılması, regional və birləşmiş dispetçer xidmətlərinin əməliyyat heyətlərinin işinə nəzarətin gücləndirilməsi də əmrdə xüsusi vurğulanıb. Eyni zamanda, "Azərenerji" ASC-nin müəssisələrinin, o cümlədən mühəndis-kommunikasiya və rabitə xətlərinin mühafizəsinin gücləndirilməsinin təmin edilməsi də məqsəd olaraq qarşıya qoyulub.

*"Azərbaycan"*

# "Azərpoçt" MMC
## tabeli poçt müəssisələrinin təminatı üçün
## *açıq tender elan edir*

Tender 1 (bir) LOT üzrə keçirilir:
**LOT 1.** Ödəmə terminallarının alınması.

Tender iştirakçılarına təklif edilir ki, öz tender təkliflərini möhürlənmiş, imzalanmış ikiqat zərfdə yazılı surətdə təqdim etsinlər.

Müqaviləni yerinə yetirmək üçün tender iştirakçıları lazımi maliyyə və texniki imkanlara malik olmalıdırlar.

Tenderdə iştirak etmək istəyənlər LOT üzrə aşağıdakı məbləğdə iştirak haqqını göstərilən hesaba köçürdükdən sonra Azərbaycan dilində tərtib olunmuş tenderin əsas şərtlər toplusunu Bakı şəhəri, Üzeyir Hacıbəyli küçəsi 72 ünvanında yerləşən "Azərpoçt" MMC-dən (əlaqələndirici şəxs İsmayılov Oktay telefon: 493-56-00 (240)) ala bilərlər.

**I LOT üzrə - 200 manat**

İddiaçılar iştirak haqqını aşağıdakı hesaba köçürməlidirlər:

**"Azərpoçt" MMC**
**Kod: 690001**
**M\H: AZ76NABZ01350100000000094944**
**VÖEN: 9900037711**
**S.W.I.F.T: AZPOAZ 22**

**"Azərpoçt" MMC**
**VÖEN: 9900037711**
**Hesablaşma hesabı:**
**AZ82AZPO99995381000420000125**

İştirak haqqı heç bir halda geri qaytarılmır. İddiaçılar tenderdə iştirak etmək üçün aşağıdakı sənədləri təqdim etməlidirlər.

- *Tenderdə iştirak etmək üçün ərizə;*
- *Tenderdə iştirak haqqının ödənilməsi barədə bank sənədi;*
- *Tender təklifi (zərflərin açıldığı gündən sonra ən azı 30 bank günü müddətində qüvvədə olmalıdır);*
- *Tender təklifi qiymətinin 1 faizi həcmində (təklifin təminatı) bank zəmanəti (zərfin açıldığı gündən sonra 60 bank günü müddətində qüvvədə olmalıdır);*
- *Azərbaycan Respublikasında vergilərə və digər icbari ödənişlərə dair yerinə yetirilməsi vaxtı keçmiş öhdəliklərin olmaması haqqında müvafiq vergi orqanından arayış;*
- *Son bir il ərzində fəaliyyəti haqqında vergi orqanları tərəfindən təsdiq olunmuş maliyyə hesabatının surəti;*
- *İddiaçının son bir il ərzində maliyyə vəziyyəti barədə bank tərəfindən verilmiş arayış;*
- *İddiaçının tam adı, hüquqi statusu, nizamnaməsi, qeydiyyatdan keçdiyi ölkə və rekvizitləri;*
- *Müvafiq mallar üzrə peşə və uyğunluq sertifikatları.*

Sənədlər Azərbaycan dilində, 2 nüsxədə (əsli və surəti) tərtib olunmalıdır (xarici dildə olan tender təklifləri Azərbaycan dilində tərcümə olunmalıdır).

Tender proseduru "Dövlət Satınalmalar haqqında" qanuna uyğun keçiriləcəkdir.

İddiaçılar tenderdə iştirak etmək üçün yuxarıda göstərilən sənədləri (tender təklifi və bank zəmanəti istisna olmaqla) **20 fevral 2019-cu il saat 18:00-a** qədər, tender təklifi və zəmanətinə isə möhürlənmiş ikiqat zərfdə **01 mart 2019-cu il saat 18:00-a** qədər Üzeyir Hacıbəyli küçəsi, 72 ünvanına təqdim etməlidirlər.

Göstərilən vaxtdan gec təqdim olunmuş zərflər açılmadan geri qaytarılacaqdır.

Təklif zərfləri **04 mart 2019-cu il saat 11:00-da** Üzeyir Hacıbəyli küçəsi 72 ünvanında açılacaqdır.

İddiaçıların səlahiyyətli nümayəndələri iştirak edə bilərlər.

***Tender komissiyası***

## BİLDİRİŞ

"Azərbaycan" qəzetinin 5 və 12 dekabr 2018-ci il tarixli nömrələrində "Azərsu" ASC-nin daxili vəsaiti hesabına "Yuyucu və təmizləyici" vasitələrin satın alınması məqsədilə dərc edilmiş tenderlərində yetərsay olmadığından tender təkliflərinin və təklif təminatlarının qəbulu vaxtı 01 fevral 2019-cu il saat 16:00-a, təkliflərin açılışı isə 04 fevral 2019-cu il saat 16:00-a dəyişdirilmişdir.

Əlaqələndirici şəxs - Təchizat və satınalmaların idarəolunması departamentinin satınalmaların təşkili şöbəsinin mühəndisi Hikmət Qasımov (hikmat.qasimov@azersu.az +994124314767(2249).

***Tender komissiyası***

# Azərbaycandan İrana qanunsuz keçmək istəyən sərhəd pozucusu saxlanılıb

Azərbaycan Respublikasının Dövlət Sərhəd Xidməti (DSX) sərhəd təhlükəsizliyinin təmin olunması sahəsində əməliyyat-axtarış və sərhəd mühafizə tədbirlərini qətiyyətlə davam etdirir.

Yanvarın 16-da dövlət sərhədinin pozulmasının qarşısı xidmət əməkdaşlarının sayıqlığı və peşəkarlığı sayəsində alınıb. Belə ki, saat 02:25 radələrində DSX Sərhəd Qoşunlarının "Horadiz" sərhəd dəstəsinin xidməti ərazisində Beyləqan rayonunun Əmirzeyidli kəndi yaxınlığındakı sərhəd zastavasının xidməti sahəsində Azərbaycan Respublikasından İran İslam Respublikası istiqamətində naməlum şəxsin ayaq izləri aşkarlanıb. Sərhəd zastavasının və qonşu bölmələrin şəxsi heyəti tərəfindən sərhəd pozucusunun mümkün hərəkət istiqamətləri qapadılıb və ərazidə təxirəsalınmaz axtarış tədbirləri həyata keçirilib. Hadisə ilə əlaqədar birgə tədbirlərin görülməsi məqsədilə İran İslam Respublikasının Aslanduz sahəsi üzrə sərhəd nümayəndəsi dərhal məlumatlandırılıb. İranın sərhəd mühafizə orqanları tərəfindən həmin istiqamətdə sərhəd mühafizə tədbirləri gücləndirilib.

Görülmüş tədbirlər nəticəsində saat 03:20-də sərhəd pozucusu aşkarlanıb. O, təqib zamanı xəbərdarlıq atəşindən istifadə edildikdən sonra tutulub. Araşdırma zamanı sərhəd pozucusunun şəxsiyyəti dəqiqləşdirilib və onun Beyləqan rayonu 2-ci Şahsevən kənd sakini 1984-cü il təvəllüdlü Muradov Rahil Məsim oğlu olduğu müəyyənləşib.

Həmin ərazinin yoxlanılması nəticəsində AKM-74 markalı silah, bir patron darağı, 7,62 millimetrlik 19 patron və sərhəd pozucusunun digər əşyaları aşkarlanaraq götürülüb.

Hadisə ilə bağlı zəruri əməliyyat-istintaq tədbirləri davam etdirilir.

Heydər Əliyev Fondunun vitse-prezidenti, IDEA İctimai Birliyinin təsisçisi və rəhbəri Leyla Əliyevanın təşəbbüsü ilə həyata keçirilən, təmirsiz həyətlərin abadlaşdırılmasına yönəlmiş "Bizim həyət" layihəsi uğurla davam edir.

# "Bizim həyət"
## layihəsi uğurla davam edir

Yanvarın 16-da "Bizim həyət" layihəsi çərçivəsində abadlaşdırılan növbəti həyət sakinlərin istifadəsinə verilib. Yenilənmiş həyət Sabunçu rayonu, Sülh küçəsi 14/1, 14/2 ünvanında 1000 nəfərə yaxın sakinin yaşadığı binaları əhatə edir



"Bizim həyət" layihəsinin əsas məqsədi ekoloji cəhətdən təmiz və abad həyətlərin

Sakinlərin istək və maraqları nəzərə alınaraq, binaların fasadları və giriş hissələri də tam təmir olunaraq onların istifadəsinə verilib. Həyətin ərazisindəki mövcud yaşıllıqların bərpası ilə yanaşı, əlavə olaraq 100 ədəd ağac əkilib və 700 kvadratmetr ərazidə yaşıllıq zolağı salınıb.

Sabunçu rayonunda sakinlərin istifadəsinə verilmiş həyət layihə çərçivəsində abadlaşdırılan on beşinci həyətdir.





modelləşdirilməsi, yaşıllıqların bərpası, sağlam həyat tərzinin formalaşdırılması, sakinlər üçün təhlükəsiz və rahat yaşam şəraitinin yaradılmasıdır.

"Bizim həyət" layihəsi çərçivəsində abadlaşdırılan həyətdə əlil və sağlamlıq imkanları məhdud insanların rahat hərəkəti də nəzərə alınıb və bütün yaş qrupları üzrə uşaqların inkişafı üçün əlverişli şəraitin yaradılması və gənclərin asudə vaxtlarının səmərəli keçirilməsi məqsədilə ərazidə idman qurğuları, uşaqlar üçün xüsusi örtüklü əyləncə mərkəzi quraşdırılıb, 4 ədəd söhbətgah və oturacaqlar qoyulub. Bu cür meydançaların salınmasında əsas məqsəd gənclərin sağlam həyat tərzi sürmələrinə, sağlamlıqlarını möhkəmlədirmələrinə, asudə vaxtlarını səmərəli keçirmələrinə, o cümlədən onlarda sistematik idmanla məşğulolma refleksinin yaradılmasına nail olmaqdır.

Sözügedən layihənin Bakının bütün rayonlarında həyata keçirilməsi nəzərdə tutulur. Bununla əlaqədar, paytaxtımızın abadlaşdırılmaya ehtiyacı olan həyətləri haqqında məlumat və tövsiyələrin IDEA İctimai Birliyinə təqdim edilməsi xahiş olunur.

# "Azercell"in yeni konseptli xidmət mərkəzi indi Bakı Beynəlxalq Avtovağzalında




"Azercell Telekom" MMC müştərilərin rahatlığını düşünərək, Bakı Beynəlxalq Avtovağzalında yeni konseptli xidmət mərkəzini istifadəyə təqdim edib.Yanvar ayının 15-dən etibarən abunəçilər burada bütün "Azercell" xidmətlərindən yararlana, nömrələr üzərində müvafiq əməliyyatlar apara, eləcə də şirkətin tarif və kampaniyaları haqqında ətraflı məlumat əldə edə biləcəklər. Həmçinin "Azercell"-in yeni xidmət mərkəzində yanvar ayının 15-dən etibarən 7 gün ərzində smartfon alan hər kəs 150 AZN dəyərində hədiyyə balansı əldə edəcək.

Qeyd edək ki, "Azercell" ölkə üzrə abunəçilərə xidmət göstərən geniş şəbəkəyə malikdir. Hazırda ölkə üzrə 8 müştəri xidməti ofisi, 1 məkanda 3 növ xidmət göstərən 29 Azercell Ekspress ofisi, 4 yeni konseptli xidmət mərkəzi fəaliyyət göstərir. Bundan əlavə, "Azercell"in 20 eksklüziv mağazası, 3 "ASAN" mərkəzlərində xidmət göstərən məntəqəsi var. 2018-ci ildə Bakı və bölgələrdə ümumilikdə 16 yeni eksklüziv mağaza istifadəyə verilib. Onu da bildirək ki, "Azercell" müştəri xidmətləri sahəsində yenilikçi ruhu ilə hər zaman seçilib. Şirkət 1998-ci ildə ölkədə ilk dəfə olaraq 24/7 rejimində fəaliyyət göstərən telefon mərkəzi, 2009-cu ildə isə Gəncədə ilk Regional Telefon Mərkəzi yaradıb. Öz abunələrinə yalnız üz-üzə deyil, həm də onlayn şəkildə xidmət göstərən "Azercell" müştəri məmnuniyyəti sahəsində göstərdiyi uğurlu fəaliyyətinə görə dəfələrlə müxtəlif mükafatlara layiq görülüb.

*"Azərbaycan"*

## ABŞ-da "şatdaun" aviasiya dispetçerlərini maaşsız qoydu



Amerikalı aviasiya dispetçerləri məhkəmə vasitəsilə əməkhaqlarının ödənilməsinə nail ola bilməmişlər. Məhkəmənin qərarına əsasən, Milli Dispetçerlər Assosiasiyasının vəsatətini yalnız Konqres təmin edə bilər. Bu barədə "Rosbalt" agentliyi xəbər verir.

Federal hökumətin işinin dayandırılması ("şatdaun") üzündən srağagün dispetçerlər ilk dəfə maaşsız qalmışlar. Belə vəziyyətdə aviasiya sərnişinlərinin təhlükəsizliyi sual altında qala bilər.

Xatırladaq ki, ABŞ Prezidenti Donald Tramp və Konqresdəki demokratlar 2019-cu il üçün büdcə məsələsində razılığa gələ bilmədiklərindən ötən il dekabrın 22-dən bəri ölkədə federal hökumət orqanlarının bir qismi maliyyələşdirilmir. Bəzi idarələrin işi dayandırılmış, əməkdaşlar ödənişsiz məzuniyyətə göndərilmişlər.

## Nayrobidə terror aktı törədildi



Keniyanın paytaxtı Nayrobidə terrorçuların mehmanxana-ofis kompleksinə hücumunun hədəfi ABŞ-ın təşkil etdiyi konfrans olmuşdur. Bu barədə yerli polis məlumat vermişdir.

14 nəfərin həlak olduğu və 30 nəfərin yaralandığı terror aktından sonra paytaxtdakı "Dusit" hotelindən 200 nəfərə yaxın adam təxliyə edilmişdir.

"Citizen" telekanalının xəbərinə görə, srağagün axşam "Dusit" kompleksinin yaxınlığında bir neçə partlayışdan sonra hotelin foyesində atışma baş vermişdir. Polis əməliyyatı dünən səhərədək davam etmişdir. Bütün terrorçular məhv edilmişdir.

Hücuma görə məsuliyyəti əsasən qonşu Somali ərazisində fəaliyyət göstərən "əş-Şəbab" terrorçu qruplaşması üzərinə götürmüşdür.

## ALLAH RƏHMƏT ELƏSİN!

Milli Məclisin deputatı, AMEA A.A.Bakıxanov adına Tarix İnstitutunun direktoru Yaqub Mahmudov və institutun kollektivi Azərbaycanın Əlcəzairdəki fövqəladə və səlahiyyətli səfiri Mahir Əliyevə qardaşı

**ZAHİR ƏLİZADƏNİN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

Bakı Şəhəri Nəsimi Rayon Məhkəməsinin sədri İlham Cəfərov və məhkəmənin kollektivi Qaradağ Rayon Məhkəməsinin sədri Sədrəddin Hacıyevə əzizi

**SABİR HACIYEVİN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi yanında Dövlət Tibbi-Sosial Ekspertiza və Reabilitasiya Xidmətinin rəhbərliyi və kollektivi iş yoldaşları Səadət Əsgərovaya qardaşı

**BƏXTİYARIN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

Gəncə Dövlət Universitetinin rektoru, professor Yusif Yusibov və universitetin kollektivi Bakı Dövlət Universitetinin Qazax filialının direktoru, professor

**VÜSƏT ƏFƏNDİYEVİN**

vəfatından kədərləndiklərini bildirir və mərhumun ailəsinə dərin hüznlə başsağlığı verirlər.


BAŞ REDAKTOR
Bəxtiyar SADIQOV

Ünvan



AZ 1073, Bakı şəhəri,
Mətbuat prospekti,
529-cu məhəllə, IV mərtəbə
e-mail:
secretary@azerbaijan-news.az
az_reklam@azeronline.com
azerbaijan-news@mail.ru
www.azerbaijan-news.az

Telefonlar

Qəbul otağı - 539-68-71,
Baş redaktor müavinləri - 538-86-86, 434-63-30, 538-97-96,
Məsul katib - 539-43-23,
Məsul katib müavinləri - 539-44-91,
Parlament və siyasət şöbəsi - 539-72-39, 539-84-41, 539-21-00,
İqtisadiyyat şöbəsi - 538-42-32, 538-35-55,
Beynəlxalq həyat, idman və informasiya şöbəsi - 432-37-68,
Humanitar siyasət şöbəsi - 538-56-60, 539-63-82
Reklam şöbəsi - 539-49-20, 538-31-11,
Kompüter mərkəzi - 538-20-87,
Fotoillüstrasiya şöbəsi - 538-84-73,
Mühasibat - 539-59-33,
Faks - (+994 12) 5398441

Qeydiyyat nömrəsi 1

"Azərbaycan" qəzetinin kompüter mərkəzində yığılıb səhifələnmiş, "Azərbaycan" nəşriyyatında çap edilmişdir

Rəsmi sənəd və çıxışlarda söylənilənlərlə bərabər, dərc üçün göndərilən digər yazılardakı fikirlər də Azərbaycan dövlətinin mənafeyinə uyğun gəlməlidir

Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır

Gündəlik qəzet

Tiraj 8183
Sifariş 133
Qiyməti 40 qəpik